# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən aziz qəzetdir

## Tarixin qurtuluş zirvəsi




4

SƏS

№ 101 (7269)

13 iyun 2025-ci il.
Qiyməti 60 qəpik

## İstehsal müəssisələrinin qurulması iqtisadi inkişaf üçün böyük amildir




2

**Prezident İlham Əliyev Bakıda müxtəlif növ və çeşiddə qəlyanaltı məhsullarının istehsalı zavodunun açılışında iştirak edib**

# Uğursuz müqayisə və yekun




5

"Azərbaycan ilə İordaniya arasında bütün sahələrdə dərin münasibətlər mövcuddur"



7

## Azərbaycanda sosial müavinətlər artırılır



9

## Uşaq əməyi istismarı: hər 10 uşaqdan biri...



13

## Ailə qurmaq üçün nə vacibdir - maddiyyat, yoxsa anlayış?



16

## "Azərbaycanın güclü ordusu döyüş meydanında öz sözünü deyib"




11

# İstehsal müəssisələrinin qurulması iqtisadi inkişaf üçün böyük amildir

## Prezident İlham Əliyev Bakıda müxtəlif növ və çeşiddə qəlyanaltı məhsullarının istehsalı zavodunun açılışında iştirak edib















***Azərbaycan Prezidenti İlham Əliyev Bakıda "Nobel Food İndustry" MMC-nin müxtəlif növ və çeşiddə qəlyanaltı məhsullarının istehsalı zavodunun açılışında iştirak edib. İqtisadiyyat naziri Mikayıl Cabbarov və "Azərsun Holdinq"in Müşahidə Şurasının sədri Əhməd Gözəl müəssisənin fəaliyyəti barədə dövlətimizin başçısına məlumat verdilər.***

"Azərsun Holdinq"ə məxsus "Qafqaz" konserv zavodu və "Shervan" MMC-nin həmtəsisçiliyi ilə istismara verilən bu müəssisədə müxtəlif növ və çeşiddə qəlyanaltı məhsulları - popkorn, çərəz və quru meyvə istehsal olunacaq. Məhsulların yerli istehlakçılara təqdim edilməsi ilə bərabər, müxtəlif ölkələrə ixracı da nəzərdə tutulur. İllik istehsal həcmi 9600 ton olan zavodda dünyanın aparıcı ölkələrinin müasir avadanlıqları quraşdırılıb. İstehsalatda istifadə ediləcək günəbaxan, badam, fındıq kimi məhsullar yerli xammal hesabına təmin olunacaq. Ümumi sahəsi 7 hektardan çox olan müəssisədə 210 nəfər daimi işlə təmin ediləcək. Zavodun ümumi investisiya dəyəri 38 milyon manat təşkil edir ki, bunun da 5 milyon manatı Azərbaycan Biznesinin İnkişafı Fondu tərəfindən ayrılmış güzəştli kreditdir.

Qeyd edək ki, Azərbaycanda istehsal, o cümlədən emal müəssisələrinin qurulması, onların fəaliyyətinin iqtisadi cəhətdən səmərəliliyi, rəqabətədavamlı məhsulun istehsalı və çeşidinin genişləndirilməsi ümumilikdə ölkə iqtisadiyyatının inkişafında böyük rol oynayır. Yerli xammal əsasında istehsalın genişləndirilməsi isə daxili bazarın sabit saxlanılması ilə yanaşı, ərzaq təhlükəsizliyinin təmin olunmasına da xidmət edir, ixrac potensialını daha da artırır. Bütün bunlar "Made in Azerbaijan" brendi ilə məhsulların xarici bazarlara çıxarılması məsələsində olduqca mühüm əhəmiyyət kəsb edir. Bu yeni zavodun yaradılması ölkəmizdə sahibkarlığın təşviqi, ərzaq təhlükəsizliyinin təmin edilməsi kimi məsələlərin Azərbaycanda həyata keçirilən dövlət siyasətinin prioritet istiqamətlərindən biri olduğunun göstəricisidir.

# Şimali Kipr parlamentinin sədri: "Azərbaycanın mövqeyi Lefkoşa ilə əməkdaşlığın vacib nümunəsidir"

**"Şimali Kipr Türk Cümhuriyyəti (ŞKTC) böyük Türk dünyasında layiqli yerini qürurla tutur. Biz Türk Dövlətləri Təşkilatının (TDT) liderlərinin Lefkoşanın bu təşkilatda müşahidəçi statusunun tanınması barədə qərarını yüksək qiymətləndirir və əlaqələrin, o cümlədən parlamentlərarası əməkdaşlığın daha da inkişaf edəcəyinə ümid edirik." AZƏRTAC xəbər verir ki, bu sözləri Şimali Kipr Türk Cümhuriyyəti (ŞKTC) parlamentinin sədri Ziya Öztürkler Türkdilli Dövlətlərin Parlament Assambleyasının (TÜRKPA) Astanada keçirilən 14-cü Plenar iclasının iştirakçılarına müraciətində deyib.**



Şimali Kipr parlamentinin sədri Azərbaycan Milli Məclisinin ŞKTC ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun yaradılması qərarını alqışlayıb və Bakının atdığı addımları Lefkoşa ilə "əməkdaşlığın vacib nümunəsi" adlandırıb.

O vurğulayıb: "Fürsətdən istifadə edərək, Azərbaycana və Milli Məclisə bir daha təşəkkürümü bildirmək istəyirəm. Biz Türk dünyası ilə strateji dialoqu daha da inkişaf etdirmək, tarixi və mədəni ortaqlığa əsaslanan əlaqələri dərinləşdirmək və genişləndirmək əzmindəyik. Türk dövlətlərinin ŞKTC ilə ikitərəfli və çoxtərəfli əməkdaşlıq potensialından maksimum istifadə edəcəyinə şübhə etmirəm".

ŞKTC parlamentinin sədri TÜRKPA-nın türk dövlətlərinin ortaq məqsədlərinə nail olunmasına verdiyi töhfəni qeyd edib. O əmin edib ki, Lefkoşa 2040-cı ilədək TDT-nin İnkişaf Konsepsiyasının həyata keçirilməsi üçün mümkün olan bütün addımları atmağa hazırdır.

Z.Öztürkler Şimali Kiprin geostrateji mövqeyinin beynəlxalq tərəfdaşlara vəd etdiyi imkanlara da diqqət çəkib. "Türk Kipri Türk dünyasının Aralıq dənizinə açılan "pəncərəsidir", TDT-nin ayrılmaz hissəsidir", -deyən parlament sədri bütün türk ölkələrini ŞKTC-nin potensialından maksimum yararlanmağa çağırıb.

Qeyd edək ki, TÜRKPA-nın plenar iclasının iştirakçıları, o cümlədən Şimali Kipr Türk Cümhuriyyəti parlamentinin sədri Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev tərəfindən qəbul edilib.

# İki qardaş dövlətin müttəfiqlik zirvəsi!



***15 iyun 2021-ci ildə "Azərbaycan Respublikası ilə Türkiyə Cumhuriyyəti arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"nin imzalanması iki ölkə arasında münasibətlərin yeni mərhələyə qədəm qoyduğunun təzahürüdür. Bu mövcud münasibətlərin keyfiyyətcə yeni müstəviyə keçməsi hər iki dövlətin rəhbərinin məqsədyönlü siyasətinin təzahürüdür. Dərin köklərə malik olan Azərbaycan-Türkiyə münasibətləri müasir dünyamızda yeni müstəvidədir.***

Dostluq və qardaşlığa söykənən və uğurla davam etdirilən Türkiyə-Azərbaycan birliyi qarşılıqlı etimad, yüksək səviyyəli əməkdaşlıq əsasında müasir dövrümüzdə daha da möhkəmlənib. Azərbaycan-Türkiyə əlaqələrinin hərtərəfli inkişafı baxımından, həyata keçirilən tədbirlər böyük əhəmiyyət daşıyır və dövlətlər arasındakı dostluq-qardaşlıq münasibətləri dünya üçün artıq nümunədir. Ulu Öndər Heydər Əliyevin ikinci dəfə Azərbaycanda siyasi hakimiyyətdə qayıdışından sonra dövlətlərarası əlaqələrin artmasına, əməkdaşlığın genişlənməsinə xüsusi önəm vermişdir. "Bir millət, iki dövlət", - deyən Ulu Öndər Heydər Əliyevin dövlətlərarası yaratdığı qardaşlıq münasibətləri bu gün Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən yüksək səviyyədə, uğurla davam etdirilir və müttəfiqlik səviyyəsinə yüksəldilib.

Üç il əvvəl 2021-ci ilin iyunun 15-də dövlət başçıları tərəfindən imzalanan "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi" Azərbaycanın müstəqillik tarixinə əbədi həkk olundu və dövlətlərarası münasibətlərində keyfiyyətcə yeni bir dövrün başlanğıcını qoydu. Şuşa Bəyannaməsi Qars müqaviləsinə, Dostluq və Əməkdaşlıq haqqında Müqaviləyə, Strateji Tərəfdaşlıq və Qarşılıqlı Yardım haqqında müqaviləyə əsaslanaraq, Azərbaycan-Türkiyə münasibətlərinə yeni mənəvi-siyasi və hərbi-strateji məzmun verib. Bu mühüm tarixi sənəd ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin təntənəsi kimi səciyyələnir və dövlətlər arasında əməkdaşlığın strateji əhəmiyyət kəsb edən sahələrini əhatə edir. Müttəfiqlik haqqında imzalanmış birgə Bəyannamə dövlətlər arasında əlaqələri ən yüksək zirvəyə qaldıraraq, gələcək işbirliyinin təminatında mühüm sənəd kimi tarixdə yer aldı. Azad edilmiş Şuşa şəhərində imzalanan Birgə Bəyannamə dövlətlərarasında əməkdaşlıqda strateji əhəmiyyət kəsb edir.

1921-ci il tarixli Qars müqaviləsinə əsasən, Naxçıvanın təhlükəsizliyinin təminatçısı olan Türkiyə 100 ildən sonra imzalanan Şuşa Bəyannaməsi ilə bütövlükdə Azərbaycanın, ümumilikdə isə regionun təhlükəsizliyinin zəmanəti qismində çıxış edir. Şuşa Bəyannaməsi diplomatiya tariximizin ən mühüm sənədlərindən biri hesab olunur və Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladığı kimi, "Bu müttəfiqlik ən yüksək əməkdaşlıq formatıdır", Sənəddə beynəlxalq müstəvidə birgə əməkdaşlıq, siyasi münasibətlər, iqtisadi-ticari əlaqələr, mədəniyyət, təhsil, idman, gənclər siyasəti, enerji təhlükəsizliyi, Cənub Qaz Dəhlizinin Türkiyə, Azərbaycan və Avropa üçün önəmi göstərilməklə yanaşı, müdafiə sahəsində əməkdaşlıq və qarşılıqlı hərbi yardım məsələləri öz əksini tapır. Bəyannamədə Zəngəzur dəhlizinin açılması ilə bağlı ifadələr də yer almışdı. Belə ki, sənəddə bir sıra məsələlərlə yanaşı, Zəngəzur dəhlizinin siyasi-iqtisadi əhəmiyyəti diqqətə çatdırılaraq, Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşasının reallaşdırılması nəzərdə tutulub. Bəyannamə iki ölkə arasında əlaqələri ən yüksək səviyyəyə qaldırdı və qardaş dövlətlər dünyaya birlik mesajlarını vermiş oldular.

Şuşa Bəyannaməsi həmçinin hər iki ölkənin iqtisadiyyatında şaxələndirmənin sürətlənməsinə, ölkələrarası mal daşımalarında, logistika məsələlərində yeni, mütərəqqi mexanizmlərin işlənib hazırlanmasına, tətbiqinə, regionda nəqliyyat-kommunikasiya əlaqələrinin bərpasına, beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafına geniş imkanlar açmış oldu. Ötən dövrün mənzərəsinə nəzər saldıqda görürük ki, iki ölkə arasında siyasi, iqtisadi-ticari əlaqələr ən yüksək səviyyədədir. Azərbaycan və Türkiyə arasında əlaqələrin belə səviyyədə inkişafı təkcə qardaş ölkələrin deyil, eləcə də regionun ümumi tərəqqisinə, sabitliyin bərqərar olmasına mühüm töhfələr verir. Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri, Bakı-Tbilisi-Qars dəmir yolu, TANAP, TAP kimi birgə layihələr regional və beynəlxalq təhlükəsizlikdə, əməkdaşlıqda müstəsna rola malikdir. Türkiyə və Azərbaycan nəinki regionda, eləcə də beynəlxalq miqyasda bir-birini ən sıx və yaxından dəstəkləyən ölkələrdir və milli maraqlarının qorunmasında qətiyyətli mövqe nümayiş etdirirlər.

İki ölkə, iki xalq xoş günlərin sevincini birgə bayram etdiyi kimi, ən çətin məqamlarda da bir-birlərinə arxa, dayaq durmağı bacarır. Qardaş ölkə 44 günlük Vətən müharibəsində Azərbaycana dəstək verərək bütün dünyaya Azərbaycanın yanında olduğunu bəyan etdi. Ümumilikdə tarixi Zəfərimiz bu qardaşlığın dünyaya təqdimatında öz sözünü dedi. Postmüharibə mərhələsində də qardaş Türkiyə Azərbaycanın işğaldan azad edilmiş ərazilərdə start verdiyi genişmiqyaslı bərpa işlərində yaxından iştirak edir. Azərbaycan ilə Türkiyə arasında olan bağlar, qardaşlıq və birlik bütün sahələr üzrə əməkdaşlığın bundan sonra da uğurla həyata keçiriləcəyinə əminlik yaradır.

Əlbəttə ki, Azərbaycanla Türkiyənin ortaq köklərdən və dəyərlərdən güc alan dostluq və qardaşlıq münasibətləri böyük inkişaf yolu keçib. Bu gün bu münasibətlər ən yüksək zirvəyə yüksəldilib. Qardaş ölkələr arasında olan bağlar, qardaşlıq və birlik bütün sahələr üzrə əməkdaşlığın bundan sonra da uğurla həyata keçiriləcəyinə əminlik yaradır. Türkiyə ilə Azərbaycan arasındakı mövcud münasibətlər regional və beynəlxalq sülhə, rifaha töhfə verir.

Bu gün Türkiyə işğaldan azad olunmuş ərazilərdə aparılan bərpa-quruculuq işlərində də yaxından iştirak edir.

Şuşa Bəyannaməsi təbii ki, Azərbaycan və Türkiyə dövlətlərinin sənəddə nəzərdə tutulan istiqamətlər üzrə əməkdaşlığında mühüm əhəmiyyət kəsb edən Sənəd kimi tarixdə yer alıb.

***Zümrüd BAYRAMOVA***

# Tarixin qurtuluş zirvəsi




Azərbaycan xalqı tarixin müxtəlif dönəmlərində ziddiyyətli hadisələrlə, fəlakətli vəziyyətlərlə, ölüm-qalım sınaqları ilə üz-üzə qalıb, lakin heç zaman işıqlı sabaha, böyük Azərbaycan qurmağa olan mübarizəsindən əl çəkməyib. Əksinə, xalqımız üzləşdiyi sınaqlarla daha da mətnləşib, iradəli və qətiyyətli olub. Təəssüf hissi ilə onu vurğulamaq lazımdır ki, bəzən üzləşdiyimiz bəşəri faciələrin başlıca çatışmayan məqamı xalqın önündə getməyi və haqq mübarizəsində qalibiyyət yaşatmağı bacaran liderinin olmaması olub. Məhz lider problemi səbəbində 1918-ci il də qazanılan müstəqilliyin ömrü cəmi 23 ay çəkdi. Xalqımız müstəqilliyini itirsə də, yenidən toparlanmağı və dövlətçiliyini qurmaq mübarizəsini davam etdirməyə nail oldu. Nəhayət çətin, ağır mübarizə öz nəticəsini verdi. 1991-ci il oktyabrın 18-də Azərbaycan xalqı yenidən müstəqil dövlətçiliyini qura bildi. Bu dəfə də xarici dövlətlərin kəşfiyyat orqanları AXC-Müsavat iqtidarının zəifliyindən, bacarıqsızlığından istifadə edərək qazanılan dövlət müstəqilliyini məhv etməyə cəhdlər göstərdilər. AXC-Müsavat iqtidarı mövcud ağır problemləri aradan qaldırmaq üçün xalqla birləşmək, xalqın çağırışlarını eşitmək əvəzinə küçələrə çıxıb etiraz səslərini qaldıran əhalinin üstünə güc strukturlarını göndərib, insanları əzməyə, döyməyə, həbsxanalara salmaq yolunu tutdular. Bu da xalqla hakimiyyət arasında uçurumu daha da dərinləşdirdi. Bu kimi ağır fəlakətli vəziyyətin fonunda ermənilər ardıcıl olaraq torpaqlarımızı işğal edirdi. Ölkədə xaos və anarxiya hökm sürürdü, müxtəlif silahlı qruplaşmaların evlərə daxil olub, soyğunçuluq etməli əhalinin sabaha olan inamını daha da sarsıtmışdır. Digər tərəfdən "sadvalçılar" "əlikramçılar" meydana çıxıb, ölkəni bölməyə cəhdlər göstərirdilər.

## Ziyalılar Ulu Öndərə müraciət edərək, ondan dövləti məhv olmaqdan xilas etməyi xahiş etdi

Gəncədə törədilən qardaş qırğını hadisələrin kulminasiya nöqtəsi oldu. 1993-cü il iyunun 13-də Milli Məclisdə Gəncə hadisələri ilə bağlı gərgin müzakirələr aparıldı. Gəncədə baş verən faciəvi vəziyyətə görə, məsuliyyət daşıyan AXC-müsavat iqtidarının əsas şəxsi, parlamentin sədri İsa Qəmbər istefa verdi. Məsuliyyətdən qaçmaq üçün digər hökumət və dövlət nümayəndələri də ardıcıl olaraq istefa verdilər. Ölkə başsız, xalq ümidsiz vəziyyətə düşmüşdür. Belə ağır dönəmdə xalq üzünü dahi oğlu, o zaman Naxçıvan Ali Məclisin Sədri olan Heydər Əliyevə tutdu, Ondan dövləti məhv olmaqdan xilas etməyi xahiş etdi. Xalqın adından çıxış edən böyük fəlakətlərin qarşısını almaq üçün 91 ziyalı 1992-ci il oktyabrın 16-da Ulu Öndər Heydər Əliyevə müraciət etdi. Tarixi qəzet olan, daim Ulu Öndərimiz Heydər Əliyevin xalq və dövlət maraqlarına söykənən siyasətinin əsas təbliğatçısı və təqdimatçısı olan "Səs" qəzeti vasitəsi edilən müraciətdə deyilirdi: "Dövlət quruculuğundakı çoxillik təcrübənizə əsaslanaraq Siz qısa müddətdə Azərbaycanda geniş xalq kütlələrini özündə birləşdirə biləcək böyük, güclü, nüfuzlu və işlək partiya yarada bilərsiniz. Öz adımızdan və on minlərlə respublika vətəndaşı adından Sizdən xahiş edirik ki, təşəkkül tapan Yeni Azərbaycan Partiyasına rəhbərlik etməyə razılıq verəsiniz. Azərbaycan Sizin sözünüzü və qəti qərarınızı gözləyir".

## Milli Qurtuluş tariximiz - 15 iyun

Ümummilli Lider Heydər Əliyev ziyalıların Ona ünvanlanan müraciətinə hörmət və rəğbət göstərdi. Çünki xalq və dövlətimiz çətin və ağır dövr yaşayırdı. Ziyalılara göndərdiyi 24 oktyabr 1992-ci il tarixli cavab məktubunda Ulu Öndərimiz Heydər Əliyev Yeni Azərbaycan Partiyasının yaradılmasına və ona rəhbərlik etməyə razılıq verdi: "Güman edirəm ki, müstəqil Azərbaycan dövlətinin gələcək həyatının və fəaliyyətinin əsasını təşkil edən demokratiya və siyasi plüralizm şəraitində Sizin müraciətinizdə göstərilən Yeni Azərbaycan Partiyasının yaradılması obyektiv zərurətdən doğur. Belə partiya Azərbaycanın siyasi-ictimai həyatında fəal iştirak edərək yeni, müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər".

Beləliklə, 1992-ci il noyabrın 21-də Naxçıvanda keçirilən təsis konfransında Yeni Azərbaycan Partiyası təsis edildi və Ulu öndər Heydər Əliyev partiyanın Sədri seçildi. YAP-ın yaranması tarixi zərurət idi. Ulu Öndər Heydər Əliyev deyirdi: "Yeni Azərbaycan Partiyası Azərbaycanda gedən ictimai-siyasi proseslərin içərisindən çıxan zərurətdir... Yeni Azərbaycan Partiyasının fərqi ondan ibarətdir ki, bu partiya onu yaratmaq, siyasi fəaliyyətlə məşğul olmaq istəyən adamların istəkləri ilə, bir təşkilati mərkəz olmadan... ağır şəraitdə, böyük təqiblər şəraitində yaranmış bir partiyadır". Ulu Öndərin nüfuzu, Azərbaycan xalqının Ona göstərdiyi yüksək etimad Yeni Azərbaycan Partiyasının qısa müddət ərzində təşkilatlanmasına, ölkənin bütün regionlarında özəklərini yaratmasına və 1993-cü ildə hakimiyyətə gəlməsinə şərait yaratdı. Xalqın istəyinə və ozamankı Elçibəy hakimiyyətin israrlı xahişləri əsasında Ulu Öndər Heydər Əliyev 1993-cü il iyunun 9-da Bakıya qayıtdı və Azərbaycanı gözləyən dəhşətli hadisələrdən, faciələrdən xilas etdi. Ulu Öndərimiz Heydər Əliyev iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi, iyunun 24-də isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

## Ulu Öndər: "Bu gün mənim üçün tarixi, əlamətdar bir gündür"

Ulu Öndərimiz Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışı və qısa müddətdə sosial-iqtisadi sahədə inkişafa nail olması, silahlı birləşmələri ləğv etməsi, beynəlxalq aləmlə əlaqələrini inkişaf etdirməsi Azərbaycanın dövlət müstəqilliyinin möhkəmlənməsinə imkanlar yaratdı. Azərbaycan xalqı Ulu Öndər Heydər Əliyevə öz sevgisini, yüksək hörmət və etimadını 1993-cü il oktyabrın 3-nə təyin edilmiş prezident seçkilərində nümayiş etdirdi. Azərbaycan xalqı üçün mühüm tarixi hadisə, müstəqil Azərbaycan dövləti üçün isə qurtuluşa gedən yolun ilk pilləsi olan prezident seçkilərində Ulu Öndər Heydər Əliyev xalqın mütləq əksəriyyətinin səsini qazanaraq Prezident seçildi. Dahi Öndərimiz Heydər Əliyevin seçkilərdə böyük üstünlüklə qələbə qazanması qədirbilən xalqımızın Ulu Öndərə, Onun möhkəm siyasi iradəsinə və yüksək nüfuzuna, idarəçilik istedadına olan dərin inamından qaynaqlanırdı. Ulu Öndər 1993-cü il oktyabrın 10-da keçirilən andiçmə mərasimindəki nitqində demişdir: "Bu gün mənim üçün tarixi, əlamətdar bir gündür. Mənə göstərilən bu böyük etimada görə Azərbaycan vətəndaşlarına, Azərbaycan xalqına hörmətimi, məhəbbətimi bildirir və əmin etmək istəyirəm ki, həyatımın sonuna qədər xalqıma sədaqətlə xidmət edəcək və bütün fəaliyyətimi Azərbaycan Respublikasının gələcək inkişafına sərf edəcəyəm".

## Verilən vədlər, qarşıya qoyulan vəzifələr layiqincə həyata keçirildi

1994-cü il sentyabrın 20-də Azərbaycanın ən yeni tarixində dönüş nöqtəsi olan neft müqavilələri imzalandı. Dünyanın 8 ölkəsinin 13 neft şirkəti ilə bağlanmış "Əsrin müqaviləsi" sonrakı illərdə daha 19 ölkənin 41 neft şirkəti ilə 26 müqavilənin imzalanmasına yol açmış, 1997-ci ildə Azərbaycan nefti Bakı-Novorossiysk neft kəməri ilə, 1999-cu ildə isə Bakı-Supsa neft kəməri ilə dünya bazarına neftin daşınması həyata keçirildi. Ümummilli Lider Heydər Əliyevin müəllifliyi və rəhbərliyi altında hazırlanaraq 1995-ci ilin 12 noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası dünyəvi dövlət quruculuğunun hüquqi əsaslarını, insan hüquq və azadlıqlarının qeyri-şərtsiz təmin olunmasının bünövrəsini qoymuşdur. 1995-ci ildə müstəqil Azərbaycanın parlamentinə keçirilən ilk seçkilər isə dövlət müstəqilliyinin möhkəmləndirilməsi prosesinin hüquqi bazasının yaradılmasına daha geniş imkanlar açmışdır. Ümummilli Lider Heydər Əliyev 1999-cu ilin dekabrında Dövlət Neft Fondunu yaratmaqla əldə olunan gəlirin şəffaf və ədalətli bölünməsini təmin etdi. Bu gün Neft Fondunun aktivlərinin həcmi 50 milyard dollardan artıqdır. 1996-2003-cü illərdə ölkəmizdə bütün makroiqtisadi göstəricilər 2-3 dəfə artdı. Ölkədə 3000 yeni sənaye müəssisəsi yaradıldı. 1993-2003-cü illərdə Azərbaycan iqtisadiyyatına 20 milyard dollar investisiya qoyuldu. Həmin dövrdə ümumi daxili məhsul 22,3 dəfə artdı. Bütün sahələrdə islahatlar geniş miqyas aldı, ölkəmizin beynəlxalq nüfuzu durmadan artmağa başladı. Ulu Öndərin müdrik siyasəti sayəsində düşmənlərin aramsız təxribatlarına, pozuculuq əməllərinə baxmayaraq, Azərbaycandakı müxtəlif mədəniyyətlərin, fərqli dünyagörüşlərinin toqquşması baş vermədi, ölkəmizdə tolerantlıq başlıca meyar olaraq qaldı.

## Ümummilli Lider Heydər Əliyev Azərbaycan xalqının yaddaşında qurucu və xilaskar dövlət xadimi kimi əbədi olaraq yaşayacaqdır

Ulu Öndər Heydər Əliyev iqtisadi inkişafı təmin etməklə yanaşı digər sahələrdə mühüm addımlar atdı, qərarlar imzaladı. Ulu Öndər dünya azərbaycanlılarını müstəqil Azərbaycan Respublikası ətrafında sıx birləşməsinə nail olmaq üçün Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü təsis etdi və Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında sərəncam imzaladı. 2001-ci ilin mayın 23-də imzalanan sərəncama əsasən həmin ilin noyabrın 9-10-da Bakıda Dünya azərbaycanlılarının I qurultayı keçirilməsi diaspor hərəkatının inkişafında yeni mərhələnin başlanğıcını qoydu. Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasət Azərbaycan dövlətinə və xalqına qələbələr bəxş etməkdədir. 2003-cü ildən Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyev Azərbaycanı Dahi Öndərimiz Heydər Əliyev yolu ilə aparaq regionun lider dövlətinə, dünyada söz və nüfuz sahibinə çevirib. Bu gün ölkəmiz sürətlə inkişaf edən iqtisadiyyatı, əlverişli geostrateji mövqeyi olan, həm də 30 il işğal altında olmuş torpaqlarını 44 günlük Vətən Müharibəsi ilə azad edən güclü və qüdrətli Azərbaycan dövlətidir. Qazanılan uğurlar, əldə olunan nailiyyətlər Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu və Prezident İlham Əliyevin çox böyük müdrikliklə apardığı siyasətinin bəhrəsidir. Millətin məhəbbətini qazanmış Ümummilli Lider Heydər Əliyev Azərbaycan xalqının yaddaşında qurucu və xilaskar dövlət xadimi kimi əbədi olaraq yaşayacaqdır.

***İLHAM ƏLİYEV***

# Uğursuz müqayisə və yekun

***Rusiyanın başlatdığı müharibə Ukrayna ərazilərinin işğalı ilə davam etməkdədir. Beynəlxalq münasibətlər sistemində baş verən çatlardan istifadə edən Moskva Kiyevə öz şərtlərini diqtə etməyə çalışır. Qanunsuz olaraq ələ keçirdiyi ərazilərin de-yure ona məxsus olduğunu bəzi ölkələrin təsdiq etməsi üçün onlara təzyiqlərini artırıb. Əgər əvvəllər SSRİ-nin ləğvinin qanunsuz olduğunu ara-sıra səsləndirirdisə, bu gün Moskva açıq tekstlə sovetlər birliyinin bərpa olunmasının vacibliyini qeyd edir, postsovet ölkələrini seçim qarşısında qoymağa çalışır. Həm də bunu müxtəlif bəhanələrlə edir, o cümlədən keçmiş "qardaş respublikalar"a fərqli yanaşmalarla nəticə əldə etmək istəyir.***



"Nüvə müharibəsi Ukrayna münaqişəsinin sülh bağlamadan dayandırılmasının nəticəsi ola bilər, belə ki, Kiyev və NATO Rusiyanın yeni ərazilərini geri almağa çalışacaqlar". Bunu Rusiya Prezidentinin köməkçisi Vladimir Medinski deyib. Əlavə edib ki, "cəbhə xətti boyunca münaqişəni dayandırsaq və əsl sülh barədə danışmasaq, sadəcə müvəqqəti atəşkəsə razılaşsaq, bu ərazi - bilirsiniz, Ermənistanla Azərbaycan arasında mübahisəli Qarabağ bölgəsi vardı - böyük bir Qarabağa çevriləcək. Bir müddət sonra Ukrayna NATO-ya qoşulacaq və NATO-dakı müttəfiqləri ilə birlikdə həmin ərazini ələ keçirməyə çalışacaq və nüvə müharibəsi baş verəcək".

Qeyd edək ki, Qarabağ beynəlxalq hüquq və tarixi baxımdan Azərbaycan ərazisidir. Medinskinin buranı "mübahisəli ərazi" kimi təqdim etməsi, yumşaq desək, siyasi səriştəsizlik hesab edilə bilər. Ukrayna -Rusiya müharibəsini Qarabağla yalnız bir aspektdə müqayisə etmək olar, o da Rusiyaya sərf etməz...

Rusiya prezidentinin köməkçisi iki 2 qəbahətə yol verib. Birincisi Qarabağa mübahisəli ərazi deyib. İkincisi, Rusiya -Ukrayna müharibəsini Qarabağdakı vəziyyətlə müqayisə edib. Medinski bu səviyyə və bilgilərlə Ukrayna ilə danışıqlarında Rusiya heyətinin rəhbərliyində təmsil olunur. Putini yaxın adamının bu gündə olması Trampı "Biz onun Ukrayna danışıqlarında iştirakını istəmirik" deməyə məcbur etmişdi.



Qarabağ mövzusuna qayıdaq, Medinski Rusiya-Ukrayna müharibəsinin Qarabağla müqayisəsinin yolverilməz olduğunu niyə bilmir, ya bilmək istəmir, onun işidir. Həqiqət isə budur, keçmiş Qarabağ münaqişəsi yalnız bir aspektdə Rusiya-Ukrayna müharibəsi ilə müqayisə edilə bilər, hər iki halda ortada təcavüz, işğal faktı var idi və var. Bir halda Ermənistan Azərbaycanın ərazilərini təcavüz və işğal etmişdi, digər halda Rusiya Ukraynaya təcavüz və işğal edib.

Rusiya mətbuatı "Rusiya Azərbaycanın Krımı və yeni regionları (Ukraynanın işğal edilmiş digər əraziləri) tanımasına ümid edir" xəbəri ilə Moskva nəhayət Bakıdan nə istədiyini elan edib. Mümkündür ki, bu istək kulis diplomatiyasında daha öncədən dilə gətirilib və AZAL təyyarəsinin vurulmasından sonra Bakı-Moskva xəttində yaranmış narazılığın davam etməsindəki motivlərindən biri də bu ola bilər. Bakıdan müsbət cavab ala bilməyən Kreml isə həm Medinskinin "Qarabağı mübahisəli" ərazi adlandırması, həm də Krım istəyini ictimailəşdirməklə mesaj verir. Rusiya başqa ölkədən yox, niyə məhz Azərbaycandan bunu açıq şəkildə istəyir? İstisna deyil ki, Moskva Bakının tələblərini - mövcud situasiyada bunun AZAL-ın vurulan təyyarəsi ilə bağlı olmasından başqa versiya görünmür, Bakının qəbul etməyəcəyini bildiyi halda şərt kimi Krım istəyini irəli sürür. Və bununla tələblərdən yayınmaq gedişi edir.

Azərbaycanın Rusiyanın bu istəyini qəbul etməyəcəyi bəllidir. Bu yalnız o halda müzakirə edilə bilər ki, Ukrayna Krımı və digər işğal edilmiş əraziləri Rusiya ərazisi kimi tanısın və beynəlxalq hüquqda qəbul olunsun. Perspektivdə bu ssenarinin mümkünlüyü görünmür. Bu halda Moskvanın Bakıya qarşı təxribat xarakterli müxtəlif açıqlamaları, yaxud addımları gözləniləndir.



## Rusiyadan baxış

"Qərb ölkələri Ukraynaya hərbi yardımı dayandırdıqda Ukraynadakı münaqişə sona çatacaq". Bunu "Zvezda" telekanalına açıqlamasında Rusiya Federasiyasının xarici işlər nazirinin müavini Aleksandr Qruşko deyib və əlavə edib ki, Qərb sülh istəyirlərsə, Ukraynaya hər yardımı dayandırmalıdırlar. Və məsələ sülh yolu ilə, siyasi və diplomatik vasitələrlə həll olunacaq. Qruşkonun Qərb ölkələrinin başçılarının müharibədə maraqlı olduqlarını vurğulayıb. "NATO-nun strateji sənədlərində məhz Rusiya Federasiyası alyans üçün birbaşa və bilavasitə təhdid kimi göstərilib, onun qarşısı alınmalıdır", - Qruşko qeyd edib.

## Hərbi əməliyyatların sonu və Putinin şərti

NATO-nun şərqə doğru genişlənməkdən imtina etməsi Rusiya üçün ABŞ-ın sülhməramlı niyyətlərinin ciddiliyi demək olacaq və ölkələrə ən yüksək səviyyədə danışıqlara başlamağa imkan verəcək. Xarici İşlər Nazirliyinin bəyanatına görə, Rusiya Ukraynadakı münaqişəyə son qoymaq üçün ilkin şərt kimi NATO-nun şərqə doğru genişlənməsinə son qoyulmasını tələb edir. Xarici işlər nazirinin müavini Sergey Ryabkov TASS dövlət xəbər agentliyinə deyib ki, buna hazır olmaq ABŞ-ın Rusiya ilə münasibətləri yaxşılaşdırmaq üçün nə qədər ciddi səy göstərdiyinin sınağıdır. ABŞ "Rusiyanın öz maraqlarına hörmət" göstərməlidir.

"Amerika tərəfi təhlükəsizlik sahəsində aramızda olan əsaslı ziddiyyətlərin səbəblərini aradan qaldırmaq üçün əməli addımlar atmaq lazımdır", - deyə strateji silahlara cavabdeh olan nazir müavini bildirib. "Bu səbəblərin başında NATO-nun genişlənməsi dayanır. Bizim üçün bu fundamental və kəskin problemi həll etmədən Avro-Atlantik məkanda mövcud münaqişəni həll etmək sadəcə olaraq mümkün deyil". Rusiya rəhbərliyi dəfələrlə NWO-nun işə salınmasına səbəb kimi Qərb alyansının şərqə doğru genişlənməsini və Ukraynanın bu alyansın mümkünlüyünü göstərib. Ryabkov 2021-ci ilin dekabrından imzalanmış memoranduma istinad edib. Orada Moskva NATO-ya yeni üzvlərin qəbulunun dondurulmasını və 1997-ci ildən alyansın yeni üzv ölkələrində qoşunların yerləşdirilməsinin ləğv edilməsini tələb edib. Bu tələb qüvvədə qalır, Ryabkov qeyd edib.

Qeyd: 1997-ci ildən Polşa, Çexiya və Macarıstan (1999), Bolqarıstan, Estoniya, Latviya, Litva, Rumıniya, Slovakiya, Sloveniya (2004), Albaniya və Xorvatiya (2009), Monteneqro (2017), Finlandiya (2023) və İsveç (20) NATO-ya qoşulublar. NATO-nun 32 üzvü var. Rusiya xarici işlər nazirinin müavini deyib ki, ABŞ Müdafiə Nazirliyinin indiki mülahizələri təxminən 10 min əsgərin Şərqi Avropadan çıxarılması "bütün qitənin təhlükəsizliyinə fayda verə bilər". NATO o zaman ultimatumu rədd etdi. Finlandiya və İsveç Ukraynada hərbi əməliyyatlar başlayandan alyansa qoşulublar. Baltikyanı ölkələrin təhlükəsizliyini təmin etmək üçün ora əlavə qoşunlar yerləşdirilir.

*Ardı Səh. 6*

# Uğursuz müqayisə və yekun

Əvvəli Səh. 5

Ryabkov diplomatik missiyaların işini normallaşdırmaq üçün yaxın vaxtlarda Rusiya və ABŞ arasında üçüncü görüşün keçiriləcəyini açıqlayıb. Görüşün vaxtı hələ ki, təsdiqlənməyib.

## Rusiya-Ukrayna münaqişəsinin sonu

"The Hindu" yazır ki, Rusiya-Ukrayna münaqişəsinin davamlı həlli üçün real diplomatiya lazımdır. Lakin Kiyevin hərəkətləri yalnız onu göstərir ki, onun sülhlə bağlı baxışı reallığa yaxın deyil. İyunun 1-də Ukrayna "Hörümçək toru" əməliyyatını həyata keçirərək, dronlarla Rusiyanın strateji bazalarını vurub. İstanbulda sülh danışıqlarının ikinci raundu və NATO-nun Vilnüsdəki Şərq sammiti öncəsi bu zərbələr ictimaiyyəti şoka salıb. Rusiya-Ukrayna münaqişəsi artıq dördüncü ildir ki, həm insan, həm də iqtisadi xərclər artır. Diplomatik həll üçün qlobal təzyiq artır və son oyun yaxınlaşır. Şahmat terminologiyasından istifadə etmək üçün biz son oyuna daxil olduq.

İstanbul sülh prosesinin canlanması və əsas beynəlxalq oyunçular arasında təmasların bərpası ilə diqqət diplomatiyaya yönəlib. Ancaq əsas suallar qalır: Ukraynanın cəsarətli zərbələri münaqişənin trayektoriyasını dəyişəcəkmi? Döyüşlər uzansa, Ukrayna sağ qala biləcəkmi? Münaqişənin əsas tərəfləri - Ukrayna, Rusiya, ABŞ, NATO və Avropa İttifaqı dərin fikir ayrılıqlarını aradan qaldıra və davamlı sülh yarada bilərmi?







ABŞ prezidenti Donald Trampın təşəbbüsü ilə başlayan sülh danışıqları bir qədər dalana dirəndi, lakin Rusiya prezidenti Vladimir Putin ehtiyatla İstanbul sülh prosesini canlandırdı. Mayın 16-da və iyunun 1-də keçirilən iki raund danışıqlardan sonra tərəflər əsirləri dəyişdirib və atəşkəs təklif ediblər. Lakin tərəflərin ciddi sülh prosesinə mane olan açıq şəkildə bir-birini istisna edən şərtlər irəli sürməsi ilə dərin fikir ayrılıqları hələ də qalmaqdadır.

Rusiyanın xüsusi hərbi əməliyyatı İstanbul danışıqlarında 2022-ci ildə başa çata bilərdi, lakin Ukrayna prezidenti Vladimir Zelenski imtina etdikdən sonra sülh sazişi iflasa uğradı. Ukrayna NATO üzvlüyünə ümid bəslədiyi üçün mübarizəni davam etdirmək qərarına gəlib və Qərb liderləri maliyyə və silah vəd edib. ABŞ prezidenti Donald Tramp "Öncə Amerika" və "Amerikanı yenidən möhtəşəm et" mövzularını gündəmə gətirib. Ukrayna münaqişəsi onun üçün çətin xarici siyasət çağırışıdır və o, onun tezliklə həllinə çalışır. ABŞ-ın xüsusi nümayəndəsi Keyt Kelloq və dövlət katibi Marko Rubio xüsusi əməliyyatı "nüvə gücləri" - Ukraynaya və Rusiyaya yardım edən ABŞ arasında təhlükəli "proxy müharibəsi" kimi tanıyıb. Rusiya-Ukrayna danışıqları 2025-ci ilin fevralında bərpa edilib. Lakin Tramp görür ki, Rusiya, Avropa və Ukrayna arasında ortaq dil və ya etimad yoxdur və bu vəziyyət proksi müharibənin bitməsinə mane olur. Həm iştirakçı, həm də vasitəçi kimi çıxış edərək, o, təcili olaraq irəliləyişə ehtiyac olduğunu düşünür. Trampın üç aylıq mekik diplomatiyası dünyaya ümid verdi. Dünyanın konturları hər iki tərəfin narahatlığını nəzərə alır. Ukrayna NATO-ya qoşulmayacaq, lakin təhlükəsizlik zəmanəti alacaq, atəşkəs və ərazi güzəştlərinə razı olacaq. Rusiyaya qarşı sanksiyalar aradan qaldırılacaq və hazırkı cəbhə xətti dondurulacaq.

Bununla belə, Ukrayna və Avropa daimi atəşkəs, Ukrayna Silahlı Qüvvələrinə məhdudiyyətlərin tam olmaması və NATO-nun 5-ci maddəsinə uyğun olaraq ABŞ-ın dəstəyi ilə təhlükəsizlik zəmanəti tələb edir. Davamlı sülh əldə edildikdən sonra sanksiyalar tədricən yumşaldılacaq, bəzi ərazilər isə tanınmamış qalacaq. Britaniya və Fransanın rəhbərlik etdiyi qondarma "istəklilər koalisiyası"nın Avropa liderlərinin görüşləri sülh sazişinin icrasına nəzarət etmək üçün "təhlükəsizlik qüvvələri"nin formalaşdırılmasına çağırılır.

Rusiya da öz növbəsində münaqişənin "əsas səbəbləri"nin aradan qaldırılmasını tələb edir: Ukraynanın neytrallığı və NATO-ya üzvlüyünə qadağa, demilitarizasiya, denazifikasiya və qoşunların çıxarılması. O, həmçinin atəşkəs zəmanətini tələb edir - Ukraynanın yenidən qruplaşmasının və Qərb silahlarını almasının qarşısını almaq. Qərb onun şərtlərini qəbul etməsə, Putin onları hərbi yolla tətbiq edəcəyi ilə bağlı xəbərdarlıq edir. Fevral ayında Tramp Ukraynanın nüvə eskalasiyası riski altında qaldığını və Rusiya ilə Yeni START müqaviləsinin müddəti 2026-cı ildə başa çatacağını qəbul edərək Rusiya və Çinlə nüvə silahının azaldılması üzrə danışıqları təklif edib. Bununla belə, rusiyalı ekspertlər bunu keçmiş ABŞ prezidenti Ronald Reyqanın Sovet lideri Mixail Qorbaçova çəkdiyi hiyləyə bənzər tələ kimi görürlər. Kreml Qərbin niyyətlərinə şübhə ilə yanaşır və Rusiyanın nüvə gücünü zəruri çəkindirici vasitə kimi görür.

Trampın münaqişəyə son qoymaq marağı Amerikanın reputasiyasını qorumaq istəyi ilə diktə olunur. O, Çinlə məşğul olmaq və Qərbi Asiya və Hind-Sakit Okeanla əlaqə qurmaq istəyir. Ukraynadakı münaqişə Avropanın qlobal muxtariyyətinə xələl gətirir, lakin onun rusofob mövqeyi dialoqa mane olur. Avropa Rusiyanı ekzistensial təhlükə kimi qələmə verməklə öz irqçiliyini ifşa edir.

Qərb Ukraynada proksi müharibə aparır. Tarixdə hər hansı bir marionetin taleyi ondan ibarətdir ki, Kiyevin münaqişənin gedişatını diktə etmək imkanları son dərəcə məhduddur. Eskalasiya riskləri artır: Ukrayna pilotsuz təyyarələrinin 2025-ci il mayın 20-də Kurskda Putinin helikopterinə hücum etdiyi deyilir. Əvvəlki hadisələr arasında Kursk yaxınlığında körpülərin partladılması, Moskva yaxınlığında pilotsuz təyyarələrin zərbələri və Qələbə Günü paradına təhdidlər daxildir. Buna cavab olaraq Rusiya Ukrayna ilə sərhəddə "bufer zona" yaratmağa çalışaraq hərbi kampaniyasını gücləndirib. Putin xəbərdarlıq edib ki, mövcud şərtlərdən imtina yalnız gələcək sülhü "daha ağrılı" edəcək. Ukraynanın Rusiya xəttinin arxasındakı zərbələri - görünür, Qərb kəşfiyyatının köməyi ilə - eskalasiya riski var. Nüvə doktrinasına görə, Rusiya suverenliyinə təhlükə yaranarsa, cavab zərbəsi endirə bilər. Hörümçək toru əməliyyatı Rusiya xüsusi əməliyyatının genişmiqyaslı müharibəyə çevrilməsi riskini daşıyır. Rusiyanın hər şeyə rəğmən sülh danışıqlarını davam etdirməyə razı olması qlobal böhranın həllində real maraqdan xəbər verir.

***V.VƏLİYEV***

# ”Azərbaycan ilə İordaniya arasında bütün sahələrdə dərin münasibətlər mövcuddur”

Azərbaycan ilə İordaniya arasındakı münasibətlər bütün səviyyələrdə və sahələrdə güclü və dərindir. AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev İordaniyanın PETRA xəbər agentliyinə müsahibəsində bildirib. Hikmət Hacıyev Azərbaycan Prezidenti İlham Əliyevlə İordaniya Kralı II Abdullah arasında yaxın və davamlı qarşılıqlı əlaqələri ikitərəfli əməkdaşlığın əsas təməli kimi qiymətləndirib.

Prezidentin köməkçisi, həmçinin ötən il Krallığın Vəliəhd Şahzadəsi II Əl-Hüseyn bin Abdullahın Bakıya səfərini və COP29 çərçivəsində dövlətimizin başçısı ilə görüşünün əhəmiyyətini vurğulayıb. O, görüşdə aparılan müzakirələri ikitərəfli əməkdaşlığın irəli aparılması üçün məhsuldar və mühüm addım kimi dəyərləndirib.

H.Hacıyev qeyd edib ki, hər iki ölkə beynəlxalq platformalarda sıx koordinasiyanı davam etdirir və qarşılıqlı maraq doğuran



məsələlərdə, o cümlədən Fələstin məsələsində ortaq mövqe sergiləyir.

# Türk dünyası qadınları: müdriklik və fədakarlıq rəmzi

## Prezident İlham Əliyev: "Türk Dövlətləri Təşkilatı miqyasında ailə məsələləri və sosial siyasət sahəsində əlaqələrin dərinləşdirilməsi ölkələrimizdə ailə institutunun qorunması və gücləndirilməsi baxımından böyük əhəmiyyət daşıyır"

“Azərbaycan dövləti qadınların hüquqlarının təmin olunması və onların cəmiyyətdə rolunun genişləndirilməsi istiqamətində ardıcıl siyasət həyata keçirir. Ölkəmizdə qadınlar öz mədəni-elmi potensialları ilə ictimai-siyasi proseslərdə yaxından iştirak edir, dövlət qurumlarında layiqincə təmsil olunurlar. ”Bu fikirlər Azərbaycan Prezidenti İlham Əliyevin Türk Dövlətləri Təşkilatının ailə məsələləri və sosial siyasət sahəsinə məsul nazirlərinin və qurum rəhbərlərinin ”Müasir cəmiyyətdə qadının rolu: dayanıqlı inkişaf və ənənəvi dəyərlər” mövzusunda ikinci iclasının iştirakçılarına ünvanlandığı məktubda yer alıb.

Dövlətimizin başçısı, həmçinin bildirib ki, zəngin ortaq tarixi-mədəni köklərə malik türk xalqlarının həyatında ailə həmişə sosial nizamın bünövrəsini təşkil edib. ”Bütün şanlı keçmişimiz boyunca qadınlar həm ailənin mənəvi dayağı olmuş, həm Vətənin müdafiəsini özlərinin müqəddəs vəzifəsi bilmiş, həm də yüksək ictimai mövqelər qazanaraq cəmiyyətin tərəqqisinə töhfə vermişlər. Müştərək əxlaqi sərvətlər xəzinəmizin yaşadılmasında onların müstəsna xidməti vardır”, - deyə Azərbaycan Prezidenti vurğulayıb.





Ölkəmizdə dövlət - qadın siyasətinin əsasını qoyan ümummilli lider Heydər Əliyev qadın şəxsiyyətinə böyük hörmətlə yanaşırdı. Ulu Öndər ölkə həyatının bütün sahələrində qadınlara xüsusi yer ayırdı, onların hərtərəfli fəaliyyətinə geniş meydan verdi, lider qadınlar yetişdirdi. Ulu öndərin şəxsi iştirakı və rəhbərliyi ilə Azərbaycan Respublikasının 1995-ci ildə qəbul olunmuş ilk Konstitusiyası qadınların kişilərlə bərabər demokratik dövlət quruculuğu prosesində fəal iştirakının hüquqi bazası yaradıldı. Konstitusiyanın qadın hüquqlarının müdafiəsinə etibarlı zəmin formalaşdıran 25-ci maddəsində hamının qanun və məhkəmə bərabərliyi, hebalə kişi ilə qadının eyni hüquq və azadlıqlara malik olduğu birmənalı şəkildə təsbit edildi. Dövlət qadın siyasətinin Prezident İlham Əliyev tərəfindən qətiyyətlə davam etdirilməsi sayəsində Azərbaycan qadınının cəmiyyətdə yeri və nüfuzu daha da artıb. Ölkəmizdə gender siyasətinin gücləndirilməsi, qadınların cəmiyyətdə rolunun yüksəldilməsi üçün ardıcıl tədbirlər həyata keçirilir. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi uğurla fəaliyyət göstərir. Azərbaycan qadınları mühüm dövlət qurumlarında, parlament və bələdiyyələrdə uğurla təmsil olunur, ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni proseslərdə fəal iştirak edir, ölkə idmanının inkişafına böyük töhfələr verirlər.

## AZƏRBAYCAN GENDER SİYASƏTİNİN REALLAŞDIRILMASINDA YENİLİKLƏRƏ İMZA ATIB

Ölkə başçısının rəhbərliyi ilə yeni siyasi və iqtisadi sistem qurulmuş, sürətlə inkişaf edərək bölgənin lider dövlətinə çevrilmiş Azərbaycan gender siyasətinin reallaşdırılması məsələsində də yeniliklərə imza atdı. Qadın hüquqlarının müdafiəsi, onlar üçün yaradılan bütün imkanların daha da genişləndirilməsi Prezident İlham Əliyevin dövlət siyasətində müəyyən etdiyi prioritet istiqamətlərdədir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda dövlət qadın siyasəti yüksəliş mərhələsinə qədəm qoymuşdur. Dövlətimizin qadınlarla bağlı yürütdüyü siyasət bu sahədə Azərbaycanı öncül dövlətlər sırasına gətirib. Ölkəmizdə qadın problemləri daim dövlət nəzarətindədir və gender proqramı ardıcıl surətdə həyata keçirilməkdədir.

Qeyd edək ki, türkdilli ölkələr kontekstində ailə dəyərləri, böyüklərə hörmət xüsusi yer tutur. Ailənin rolunu anlamaq, gücləndirmək böyük əhəmiyyət kəsb edir.

Prezident İlham Əliyev qeyd edib ki, hazırkı qlobal çağırışlar dövründə Türk Dövlətləri Təşkilatı miqyasında ailə məsələləri və sosial siyasət sahəsində əlaqələrin dərinləşdirilməsi ölkələrimizdə ailə institutunun qorunması və gücləndirilməsi baxımından böyük əhəmiyyət daşıyır, ənənəvi dəyərlərlə uzlaşan dayanıqlı inkişaf və inklüzivlik yolunda yeni imkanlar açır.

TDT-yə üzv ölkələrdə 170 milyondan artıq əhali var və onların da 40 faizini gənclər təşkil edir. Bu baxımdan, mənəvi dəyərlərimizi qorumaq, müasir dövrlə ayaqlaşmaq üçün ”yol xəritəsi”nin hazırlanması vacibdir. Türk toplumları arasında birliyin, bərabərliyin, ailə qurumlarının daha da güclənməsi üçün işlər davam etdiriləcək.

Azərbaycanda qadın hərəkatının formalaşmasında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın mühüm xidmətləri vardır. Mehriban xanım Əliyeva fəaliyyəti ilə Azərbaycanda qadın hərəkatını canlandıraraq onun tarixində yeni bir mərhələ açdı. Cəmiyyətimizdə qadınlara münasibətdə Azərbaycan ailəsinə zidd olan stereotiplərin aradan qaldırılması, xanımların ictimai həyatda fəal iştiraka cəlb edilməsi üçün zəmin yaratdı. Mehriban xanım Əliyeva müasir Azərbaycan qadınını təcəssüm etdirir. O, həm ictimai xadim, həm ailə xanımı, həm ana kimi bütün qadınlarımıza cəmiyyətin həyatında layiqli yer tutmaq nümunəsini göstərir. Azərbaycan qadını üçün səciyyəvi olan humanizm, qayğıkeşlik və insanpərvərlik kimi ali mənəvi keyfiyyətlər Mehriban xanım Əliyevanın şəxsiyyətində daha parlaq təcəssümünü tapır.

## GƏLƏCƏK NƏSİLLƏRƏ ÖRNƏK, SÜLHÜN, ƏMİN-AMANLIĞIN CARÇISI OLMUŞ AZƏRBAYCAN QADINI

Həmişə sülhün, əmin-amanlığın carçısı olmuş Azərbaycan qadınları respublikada baş verən mürəkkəb ictimai siyasi proseslərin gedişində də onların üzərinə düşən vəzifələrin öhdəsindən ləyaqətlə gəlmiş, daim milli dövlətçilik mövqeyindən çıxış etmişlər. Övladlarını Vətənə sədaqət, Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, ərazi bütövlüyünün təmin edilməsi uğrunda əzmkarlıq və qətiyyət göstərmək ruhunda tərbiyə etmək, onları xalqa, cəmiyyətə layiqli bir övlad kimi yetişdirmək işində Azərbaycan qadını öz üzərinə düşən ağır yükü şərəflə yerinə yetirir. Azərbaycanda milli mənafe və dövlətçilik maraqlarının təmsilçisi olmaq kimi müqəddəs amalı özünün siyasi idealı, əsas fəaliyyəti hesab edən qadınlarımız öz mövqelərində sadiqdirlər, ictimai-siyasi prosesin fəal iştiakçısıdırlar. 44 günlük Vətən müharibəsində Azərbaycan qadınının müdrikliyinin, məğrurluğunun, qəhrəmanlığının bir daha şahidi olduq. Xalqımız olduqca həssas dönəmində qadınlarımızın nümayiş etdirdiyi iradə, fədakarlıq, vətənpərvərlik gələcək nəsillər üçün əsl örnək oldu.

Azərbaycan qadınının həm ailədə, həm işdə, həm də cəmiyyətdə layiqli mövqeyi dövlətimizin uğurlu, xoşbəxt sabahına, xalqımızın firavanlığına ən ciddi təminatlardan biridir. Azərbaycan qadını Vətənin yüksəlişinin müdhiş sınaqlarından keçərək bu əmin-aman günlərimizə necə yetişdiyini heç bir zaman unutmayaraq, gələcəyimiz naminə özünü səfərbər edərək əməyi, zəhməti, ağlı, elmi, bacarığı, sədaqəti ilə bu yüksəlişə dayaq olacaqdır.

Gender anlayışı kişi və qadınların cəmiyyət həyatında sosial statusunu, funksiya və rolunu ifadə edir. Yəni, qadın və kişilər cəmiyyət həyatında eyni sosial rola, eyni sosial funksiyalara malikdirlər. Bu gün Azərbaycanda gender məsələləri ilə bağlı dövlət siyasəti qadınların bərabər imkanlarının gerçəkləşdirilməsinə yönəlib.

***Nəzakət ƏLƏDDİNQIZI***

# 15 İyun - Azərbaycanın xilası və Zəfər tarixinin təməli

***Azərbaycan tarixində mühüm dönüş nöqtələrindən biri olan 15 iyun - Milli Qurtuluş Günü, xalqımızın dövlətçiliyinin xilası və müstəqilliyimizin möhkəmlənməsində əvəzsiz rol oynamışdır. Bu gün, yalnız təqvimdəki sadə bir tarix deyil, eyni zamanda milli yaddaşımızın, azadlıq iradəmizin və dövlətçilik ənənəmizin yenidən dirçəliş günüdür. Bu tarixi yaradan isə Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasında, möhkəmlənməsində, inkişafında müstəsna rol oynayan, daim xalqına arxalanan ulu öndər Heydər Əliyevdir.***




Ümummilli lider Heydər Əliyevin adı çəkiləndə bütün həyatını dövlətinin, xalqının işıqlı gələcəyinə həsr edən, ölkəsini hər zaman zirvələrdə görmək istəyən, ideyaları ilə gələcəyin aydın mənzərəsini təqdim edən şəxsiyyət göz önünə gəlir. Tarixdə şəxsiyyətlərin rolundan hər zaman bəhs edilir. Dünya təcrübəsi göstərir ki, böyük şəxsiyyətlərin ideyaları cəmiyyətdə baş verən hadisələrə çox ciddi təsir göstərir. Bu baxımdan milli liderin dünyagörüşü, həyat təcrübəsi və siyasi iradəsi inkişaf strategiyasının istiqamətlərini şərtləndirir, ən çətin məqamlarda düzgün seçim etməyə geniş imkanlar yaradır. Ümumiləşdirilmiş şəkildə qeyd etsək, dövlət o zaman güclü olur, xalq o zaman gələcəyə böyük inamla baxır ki, onun milli maraqları hər şeydən üstün tutan, dövrün, zamanın nəbzini müəyyənləşdirdiyi inkişaf strategiyası ilə tənzimləyən Lideri vardır. Liderliyi şərtləndirən meyarların müxtəlifliyi fonunda öncə bu məqama diqqəti yönəltmək istərdik ki, siyasi liderliyin ilkin şərti dövlətin gələcəyini öncədən görmək və bununla bağlı müəyyənləşdirdiyi uzaqgörən siyasətini həyata keçirə bilməkdir. Xalqımızın ümummilli lideri Heydər Əliyev məhz belə şəxsiyyətlərdəndir. Onun ideyaları Azərbaycanın düənninin, bu gününün və gələcəyinin əsasıdır.



**Bəxtiyar Nəbiyev**
**YAP Yasamal rayon təşkilatının sədri**

Bu gün hər kəs, istər müstəqil Azərbaycanın vətəndaşları, istərsə də bütün dünyada yaşayan azərbaycanlılar yaxşı bilir ki, ulu öndər Heydər Əliyev şəxsiyyəti müasir Azərbaycanın dövlətçilik tarixində ən parlaq simadır. Azərbaycan xalqının qəlbində əbədiyaşar yerə sahib, hələ sağlığında Ümummilli Lider statusunu qazanan, Ulu Öndər kimi milyonların sevimlisi olan Heydər Əliyev müasir Azərbaycan dövlətinin xilaskarı, memarı və qurucusu kimi tarixə düşüb. Bəli, hər kəsin bildiyi və qəbul etdiyi, bəzilərinin istəməsə belə qəbul etməyə məcbur olduğu yenilməz bir həqiqət var ki, bu, ulu öndər Heydər Əliyevin Azərbaycan xalqının xilaskarı, onun müəyyən etdiyi ideoloji xəttin müasir dövlətimizin parlaq gələcəyinin təminatçısı olmasıdır. Azərbaycan tarixində silinməz izlər qoymuş dahi şəxsiyyətin biz azərbaycanlılara bəxş etdiyi saysız-hesabsız tarixi günlər vardır ki, xalqımız bu gün həmin tarixləri əsl bayram kimi qeyd edərək dahi şəxsiyyətə böyük hörmət və ehtiramla anır.

Azərbaycan tarixinə Milli Qurtuluş Günü kimi daxil olan 1993-cü ilin 15 iyunundan 32 il ötür. Bu o tarixdir ki, həmin gün dövlətçiliyimiz yox olmaq təhlükəsindən xilas edilməsi üçün əsaslı sütunlar yarandı. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev öz xilaskarlıq missiyası ilə ölkəmizin müstəqilliyini qorudu, respublikada tüğyan edən ictimai-siyasi böhranı aradan qaldırdı və inkişafın təməlini qoydu.

Ümummilli lider Heydər Əliyevin adı tariximizə həm də böyük xilaskar kimi düşüb. XX əsrin sonlarında yenidən müstəqillik qazanmaq kimi tarixi fürsəti əldə edən Azərbaycan qısa vaxtdan sonra onun itirilməsi təhlükəsi ilə üzləşdi. Vətəndaş müharibəsi dərəcəsinə yüksəlmiş qarşıdurma nəinki dövlət müstəqilliyimizi, hətta milli varlığımızı belə birbaşa hədəfə aldı. Beləliklə, 1991-1993-cü illərin ortalarınadək ölkəmizin tarixində hərcmərclik, özbaşınalıq, avantürist eksperimentlər dövrü kimi xatırlanır. Bütün bunlar isə həmin dövrdə yeni yaradılmış müstəqil dövlətə liderlik xüsusiyyətlərinə malik olmayan, siyasi hadisələrə qiymət vermək, gələcəyi görmək imkanlarından məhrum olan, adi vəziyyətdən belə çıxış yolu tapmağa qadir olmayan şəxslərin rəhbərlik etməsinə görə baş verirdi. Hadisələri düzgün qiymətləndirə bilməyən ovaxtkı iqtidar əhali arasında gündən-günə nüfuzunu itirir, baş vermiş proseslərdən düzgün nəticə çıxara bilmirdi.

Azərbaycan torpaqlarının Ermənistan silahlı qüvvələri tərəfindən davamlı işğalı, getdikcə gərginləşən siyasi vəziyyət, əhalinin gündən-günə ağırlaşan sosial durumu ölkəni bu bəlalardan xilas edə biləcək, xalqı öz arxasınca aparmağa qadir liderə ehtiyac olduğunu şərtləndirirdi. Cəmiyyətin bütün təbəqələri əmin idi ki, müstəqilliyini yenicə bərpa etmiş ölkəni düşdüyü ağır və dözülməz vəziyyətdən çıxarmağa qadir yeganə şəxsiyyət məhz ulu öndər Heydər Əliyevdir. Əslində, bu, bütün xalqın ürəyinin səsi idi. Xalqımız Ümummilli Liderin ətrafında sıx birləşməklə gələcək taleyini özü həll etmək niyyətində idi. Beləliklə, 1993-cü il iyunun 9-da Heydər Əliyev xalqın çağırışına səs verərək Bakıya qayıtdı və Azərbaycan Xalq Cümhuriyyətinin taleyindən daha dəhşətli hadisələrin gözlənildiyi ölkəmizi bəlalardan, müsibətlərdən xilas etdi. Həmin gün, sözün həqiqi mənasında, ölkəmizin taleyində dönüş anı oldu, böyük qurtuluşa doğru mühüm addım atıldı. Xalqımızı nicata aparan yol bilavasitə həmin gündən başlandı.

1994-cü il sentyabrın 20-də imzalanan və tarixə "Əsrin müqaviləsi" kimi düşən neft kontraktı müasir Azərbaycanın enerji strategiyasının başlanğıcı və iqtisadi müstəqilliyinin əsasını təşkil edən mühüm sənəd oldu. Bu müqavilə dövlətimizin Xəzər dənizinin Azərbaycan sektorundakı "Azəri-Çıraq-Günəşli" yataqlar blokunun işlənməsi üçün dünyanın aparıcı neft şirkətləri ilə tərəfdaşlığa daxil olması baxımından strateji əhəmiyyət daşıyırdı. Ümummilli Lider Heydər Əliyevin siyasi iradəsi və uzaqgörənliyi ilə həyata keçirilmiş bu nəhəng layihə ölkənin gələcək taleyini müəyyən edən dönüş nöqtəsinə çevrildi. "Əsrin müqaviləsi" nəticəsində Azərbaycan ilk dəfə olaraq beynəlxalq enerji bazarına inteqrasiya olundu və öz təbii sərvətlərindən səmərəli istifadə edərək güclü iqtisadi bünövrə formalaşdırmağa başladı. Transmilli şirkətlərlə qurulan əməkdaşlıq sayəsində ölkəyə milyardlarla dollar məbləğində xarici sərmayə cəlb olundu, bu isə həm enerji sektorunun, həm də qeyri-neft sahələrinin canlanmasına təkan verdi. Eyni zamanda, müqavilənin reallaşdırılması üçün Bakı-Tbilisi-Ceyhan kimi beynəlxalq əhəmiyyətli neft kəmərinin inşası zərurəti yarandı və nəticə etibarilə Azərbaycan neftinin dünya bazarlarına təhlükəsiz və stabil çıxışı təmin olundu. Bu kəmər ölkəmizin nəinki enerji ixracatçısı, eyni zamanda enerji təhlükəsizliyinin təminatçısı olan mühüm regional aktora çevrilməsində həlledici rol oynadı.

İyunun 15-də dahi şəxsiyyət Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi və böyük risklərə baxmayaraq, xalqın qurtuluşu missiyasını cəsarətlə öz üzərinə götürdü. "Mənim həyatım da, fəaliyyətim də yalnız və yalnız Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasına, ölkəmizin bu ağır vəziyyətdən qalxmasına həsr olunacaqdır", - deyən Ümummilli Lider problemlərin həlli üçün ölkədə vətəndaş həmrəyliyini, sabitliyi son dərəcə vacib sayırdı: "Əgər respublikada ictimai-siyasi sabitlik olmasa, sağlam ictimai-siyasi mühit olmasa, heç bir sosial-iqtisadi proqramdan, yaxud problemlərin həll edilməsindən söhbət gedə bilməz".

Ulu Öndərin yenilməz iradəsi, uzaqgörənliyi, fədakarlığı onu bütün dünya azərbaycanlılarının lideri edib, ömür yolu doğma Vətənə xidmət nümunəsinə çevrilib. Bütün şüurlu həyatını canından artıq sevdiyi xalqına, ölkəsinə həsr etmiş bu müdrik siyasi və dövlət xadimi tariximizdə müstəqilliyimizin memarı və qurucusu kimi yer tutub. Heydər Əliyev fenomeninə məxsus iti zəka, müdriklik, uzaqgörənlik və əzmkarlıq ona Ümummilli Lider mövqeyi qazandırıb. Çoxşaxəli və zəngin fəaliyyəti, misilsiz insani keyfiyyətləri sayəsində o, zəmanəmizin əbədiyaşar dahisinə çevrilib. Azərbaycan xalqı haqlı olaraq Heydər Əliyev irsini müstəqilliyinin təminatçısı kimi qəbul edir. Beləliklə, bu mühüm tarixi gün xalqımızın yaddaşına Milli Qurtuluş Günü kimi həkk oldu və 1997-ci ildən etibarən parlamentin qərarı ilə rəsmi bayram kimi qeyd edilir.

Ötən illər ərzində Azərbaycan böyük inkişaf yolu keçib. Ölkəmizin inkişaf strategiyası məhz ulu öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilib. Azərbaycanda Heydər Əliyev siyasətinin alternativi yoxdur. Bugünkü Azərbaycan Heydər Əliyevin görmək istədiyi Azərbaycandır. Bu gün milli qurtuluş ideologiyasının təntənəsi müstəqil respublikamızın davamlı inkişafında özünü aydın göstərir, regionda və dünyada Azərbaycanın nüfuzu daha da artır.

Ulu öndər Heydər Əliyevin möhkəm təməllər üzərində əsasını qoyduğu balanslaşdırılmış xarici siyasət uzaq hədəflərə hesablanmış strateji fəaliyyət konsepsiyası olmaqla, müstəqil Azərbaycanın beynəlxalq arenada nüfuz və mövqelərinin güclənməsinə, ümummilli problemlərinin həllinə yönəlmişdir. İnamla deyə bilərik ki, bu siyasət 2003-cü ilin oktyabrından ulu öndər Heydər Əliyev siyasi kursunun ən layiqli davamçısı - ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi altında uğurla həyata keçirilir. Ulu öndər Heydər Əliyevin demokratik dövlətçilik strategiyasını ləyaqətlə davam etdirən Azərbaycan Prezidenti müəyyənləşdirilmiş möhkəm ənənələr üzərində özü də yeni bir dövlətçilik məktəbinin banisinə çevrilmişdir.

Prezident İlham Əliyevin dövlətçilik fəaliyyətində siyasi varisliyin təmin edilməsi respublikada davamlı və dayanıqlı inkişafın baş verməsini şərtləndirmişdir. Azərbaycan Respublikasına rəhbərlik etdiyi 21 il ərzində Prezident İlham Əliyev dünyada gedən proseslərə, ölkədə baş verən hadisələrə daim yeni yanaşması, hər hansı bir məsələnin görsənən və görünməyən tərəflərini birlikdə təhlil edib dəyərləndirməsi, yeni çağırışlara vaxtında və yüksək səviyyədə cavab verməklə yanaşı, hətta bir çox hallarda fərqli çağırışların müəllifi kimi çıxış etməsi ilə səciyyələnir.

Ölkə Prezidenti cənab İlham Əliyevin uzaqgörən, düşünülmüş və qətiyyətli siyasəti sayəsində Azərbaycanın əldə etdiyi uğur və nailiyyətlər onu söyləməyə əsas verir ki, ulu öndər Heydər Əliyevin bizlərə miras qoyduğu müstəqil dövlət əmin əllərdədir. Demokratik dövlətdə siyasət xalq naminə və xalqın vasitəsilə həyata keçirilir. Ən əsası da necə ki, Ümummilli Liderin qətiyyəti xalqa ruh yüksəkliyi gətirdi, özümüzə inamımızı dirçəltdi, milli şüuru oyatdı, eləcə də ölkə başçısı həmin inamın davamlı olmasını gördüyü işlərlə təmin edir.

Bu gün Azərbaycan Respublikasının əldə etdiyi uğurlu nailiyyətlərin şah əsəri heç şübhəsiz Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində Rəşadətli Azərbaycan Ordusunun doğma Qarabağımızı düşmən tapdağından azad etməsidir. Bu tarixi Zəfər və ərazi bütövlüyümüzün təmin olunması mahiyyət etibarilə Ümummilli Liderimizin müəyyən etdiyi və Prezident İlham Əliyevin daha da təkmilləşdirərək müasirləşdirdiyi və inamla həyata keçirdiyi milli dövlətçilik strategiyasının ən böyük təntənəsidir. Azərbaycan heç vaxt indiki qədər güclü olmayıb, xalqımızın çoxəsrlik tarixində buna bənzər Qələbə olmayıb. Əbədiyaşar Lider haqqında söhbət açarkən Prezident İlham Əliyevin Şuşa işğaldan azad olunan gün Fəxri xiyabanda Ulu Öndərin məzarını qürurla ziyarət etməsi, xalqa müraciətində dediyi sözlər yada düşür: "Mən bu gün, eyni zamanda, ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!"

Bundan əlavə Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə 2023-cü ilin 19-20 sentyabr tarixlərindəki lokal xarakterli anti terror tədbirləri və həmin ilin 15 oktyabr tarixində isə Xankəndi, Xocalı, Xocavənd, Ağdərə şəhərlərində, Əsgəran qəsəbəsində üçrəngli bayrağımızın dalğalandırılması tarixi Zəfərlərimizin zirvəsi oldu. Bu gün artıq işğaldan azad olunmuş torpaqlarımıza yeni həyat qayıdır. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi altında Ulu Öndərin amallarını yaşadan, ideyalarını gerçəkləşdirən Heydər Əliyev Fondu da işğaldan azad edilən ərazilərdə aparılan quruculuq işlərinə töhfə verir. Xüsusilə də fond tərəfindən Qarabağ və Şərqi Zəngəzurda tarixi, mədəni, dini irsimizin bərpası istiqamətində mühüm layihələr həyata keçirilir. Bir sözlə, Azərbaycan dövləti Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulması, keçmiş məcburi köçkünlər üçün daha yaxşı şəraitin yaradılması, illərdir torpaq həsrəti ilə yaşayan insanlarımızın yurdlarına qovuşması üçün böyük işlər gerçəkləşdirir. Fond tərəfindən tikilən məktəblərdə çalınan ilk zəng, bərpa edilmiş məscidlərimizdən ucalan azan səsi o yerlərə qayıdan həyatın rəmzi kimi səslənir. Bu tarixi uğurlar isə vaxtilə Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi qayıdış siyasətinin dövlət başçısı İlham Əliyev tərəfindən müvəffəqiyyətlə reallığa çevrilməsidir. Şübhəsiz, bütün bunların fövqündə əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan və bu gün Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən güclü siyasi iradəyə söykənən müstəqil strateji kurs dayanır. Məhz bu ulu öndər Heydər Əliyevin görmək istədiyi müstəqil və güclü Azərbaycandır!

Qeyd edək ki, regionun söz sahibi olan Azərbaycan beynəlxalq aləmdəki artan nüfuzu ilə əməkdaşlıq və təhlükəsizlik məsələlərinə xüsusi diqqət yetirir. Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan və bu gün Prezident cənab ilahm Əliyev tərəfindən uğurla davam etdirilən müasir və müstəqil Azərbaycanın xarici siyasətində milli maraqlar və beynəlxalq hüquq normaları ilə yanaşı, sülh, sabitlik, inkişaf, qarşılıqlı faydalı əməkdaşlıq kimi meyarları da əsas götürür, beynəlxalq münasibətlər sisteminə yeni və daha mütərəqqi dəyərlər təqdim edir. Bu isə daha çox regional və qlobal inkişafa, sabitliyə, təhlükəsizliyə töhfə kimi xarakterizə edilir.

15 İyun - Milli Qurtuluş Günü Azərbaycan tarixində təkcə bir siyasi dönüş nöqtəsi deyil, eyni zamanda xalqla liderin birliyinin, dövlətçiliyin xilasının və gələcəyə aparan sabit yolun başlanğıcı olmuşdur. Ulu öndər Heydər Əliyevin ikinci dəfə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı ölkəmizi dağılmaqdan xilas etmiş, milli dövlətçiliyin təməlini möhkəmləndirmişdir. Bu gün Azərbaycanın qazandığı bütün uğurların - ərazi bütövlüyümüzün bərpası, beynəlxalq nüfuzun artması, iqtisadi güclənmə və sabitlik kimi nailiyyətlərin kökündə 1993-cü ilin 15 iyununda atılan qətiyyətli addımlar dayanır.Milli Qurtuluş Günü, həm də xalqın öz taleyinə sahib çıxmaq iradəsinin və siyasi yetkinliyinin təntənəsidir. Bu gün biz iftixarla deyə bilərik ki, Ümummilli Liderin başladığı siyasi kurs Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir və Azərbaycan uğurla inkişaf edir. Əldə edilən tarixi Qələbələr də məhz həmin ideoloji-siyasi təməlin parlaq nəticəsidir. 15 İyun tarixi xalqın birliyini, əzm və iradəsini, milli ruhunu təcəssüm etdirən müqəddəs gündür. Bu günün tarixi əhəmiyyəti illər keçdikcə daha aydın görünür və gələcək nəsillərə örnək kimi çatdırılır. Azərbaycan xalqı üçün 15 İyun təkcə keçmişin deyil, həm də sabit və parlaq gələcəyin başlanğıcıdır.

# Azərbaycanda sosial müavinətlər artırılır

## F Ə R M A N





***Prezident İlham Əliyev sosial müavinətlərin, Prezident təqaüdlərinin və fəxri adlara görə təqaüdlərin məbləğlərinin artırılması, bununla əlaqədar bəzi fərmanlarında və sərəncamında dəyişiklik edilməsi haqqında fərman imzalayıb. SİA xəbər verir ki, fərmana əsasən, iyulun 1-dən sosial müavinətlərin məbləğləri aşağıdakı kimi müəyyən edilib:***

- orqanizmin funksiyalarının 81-100 % pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə 300 manat, orqanizmin funksiyalarının 61-80 % pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə 250 manat, orqanizmin funksiyalarının 31-60 % pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə 180 manat;
- ailə başçısını itirməyə görə 140 manat;
- müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının uşaqlarına 140 manat;
- valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların qəyyumlarına (himayəçilərinə) 140 manat;
- bir yaşınadək uşağı olan aztəminatlı ailələrə hər uşaq üçün 140 manat;
- beşdən çox uşağı olan qadınlara hər uşaq üçün 140 manat;
- övladlığa götürülən uşağa (18 yaşınadək əlilliyi müəyyən edilmiş uşaqlar istisna olmaqla) görə 240 manat;
- himayədar ailəyə verilmiş 18 yaşınadək əlilliyi müəyyən edilmiş uşağın tərbiyə edilməsinə görə: 0-6 yaş arası uşağa görə 500 manat, 7-13 yaş arası uşağa görə 600 manat, 14-18 yaş arası uşağa görə 650 manat;
- uşağın anadan olmasına görə 600 manat;
- dəfn üçün 600 manat.

Bundan başqa, iyulun 1-dən Prezident təqaüdlərinin aylıq məbləğləri aşağıdakı kimi müəyyən olunub:

- "Vətən Müharibəsi Qəhrəmanı" adı verilmiş şəxslərə 2 200 manat;
- Azərbaycanın Milli Qəhrəmanı adı verilmiş hər bir şəxs üçün 2 000 manat;
- şəhid ailəsi üçün 700 manat;
- 20 Yanvar şəhidinin ailəsi üçün 700 manat;
- Əfqanıstanda sovet qoşunlarının tərkibində beynəlmiləl borcunu yerinə yetirərkən həlak olan, itkin düşmüş və məhkəmə qaydasında ölmüş elan edilən hərbi qulluqçuların ailələrinə 700 manat;
- müharibə və ya 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslərə:

orqanizmin funksiyalarının 81-100 % pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə - 600 manat;

orqanizmin funksiyalarının 61-80 % pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə - 500 manat;

orqanizmin funksiyalarının 31-60 % pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə - 400 manat;

orqanizmin funksiyalarının 81-100 % pozulmasına görə və ya 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə qulluq edən şəxslərə 120 manat;

ümumi səbəblərdən orqanizmin funksiyalarının 81-100 % pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə (gözdən əlilliyi olan şəxslər istisna olmaqla) 250 manat;

- ümumi səbəblərdən orqanizmin funksiyalarının 81-100 % pozulmasına görə gözdən əlilliyi müəyyən edilmiş şəxslərə 350 manat.

Eyni zamanda, iyulun 1-dən Prezidentin fərdi təqaüdünün məbləği 1 700 manat, fəxri adlara görə aylıq təqaüdün məbləği xalq yazıçısı, xalq şairi, xalq artisti və xalq rəssamı üçün 300 manat, əməkdar elm xadimi, əməkdar incəsənət xadimi, əməkdar artist, əməkdar rəssam, əməkdar mədəniyyət işçisi, əməkdar müəllim, əməkdar həkim, əməkdar memar, əməkdar bədən tərbiyəsi və idman xadimi, əməkdar dövlət qulluqçusu, əməkdar jurnalist, əməkdar mühəndis, əməkdar hüquqşünas, əməkdar kənd təsərrüfatı işçisi, əməkdar pilot, əməkdar tibb işçisi üçün 200 manat müəyyən edilib. Nazirlər Kabineti fərmandan irəli gələn məsələləri həll etməlidir.



# Paşinyanın parlament seçkilərində qalib gəlmək perspektivi necədir?

## Aleksandr Perendjiyev: "Mən inanıram ki, Ermənistan nə vaxtsa yenə də Azərbaycandan Qarabağ üçün bağışlanmasını istəyəcək"










***Plexanov adına Rusiya İqtisadiyyat Universitetinin Siyasi təhlil və sosial-psixoloji proseslər kafedrasının dosenti, politoloq Aleksandr Perendjiyev "Moskva-Baku" portalına müsahibəsində Ermənistanın baş naziri Nikol Paşinyanın gələn il keçiriləcək parlament seçkilərində qələbə perspektivlərini şərh edib. Ekspertin müsahibəsini oxucularımıza təqdim edirik.***

***- Ermənistan hakimiyyəti bu yaxınlarda parlament seçkilərinin tarixini açıqladı, Nikol Paşinyanın seçkilərdə qalib gəlməsinin perspektivləri necədir?***

- Mən hesab edirəm ki, Nikol Paşinyanın gələn il parlament seçkilərində qalib gəlməsi baxımından böyük perspektivləri var. O, 2018-ci ildə hakimiyyətə gəldi və dəfələrlə onun devrilməsi ilə nəticələnə biləcək çox kəskin, çətin, zahirən həll olunmayan apokaliptik vəziyyətlə üzləşdi. Amma gördüyümüz kimi o, artıq 8 ildir hakimiyyətdədir. Müxalifət isə heç vaxt ona əsl rəqibə çevrilməyib.

Eyni zamanda, hesab edirəm ki, Ermənistanın indiki baş naziri "sağ qalmaq" və müəyyən dərəcədə müxalifətlə "qarşılıqlı fəaliyyət" sxemi tapıb. Rollar, necə deyərlər, illərdir bölüşdürülüb. Müxalifət özü Paşinyan üçün kifayət qədər müsbət imic yaradır. Eyni zamanda, müxalifət bu gündəmin aktual olduğu şəraiti və əhalidə baş nazirin uzaqlaşdırıla biləcəyi illüziyası yaradır.

Obyektiv olaraq bu gün Ermənistan Respublikasında müxalifət hakimiyyət kimi deyil, məhz müxalifətçi kimi aktualdır. Çünki Nikol Paşinyanın hakimiyyətdə qaldığı 8 il ərzində sadə insanlar revanşizm məsələsində sakitləşib və qondarma "Qarabağ klanı"nın gündəmi onları yorub. Onlar sadəcə normal həyat sürmək istəyirlər. Paşinyan sözün əsl mənasında erməni dünyasını, Ermənistanı yenidən işə salmağa, onun üçün yeni səhifə açmağa çalışır və "əsl Ermənistan" ideyasını təbliğ edir.

Paşinyan, gördüyümüz kimi, havada ahəngini tez dəyişə bilən dövlət başçısıdır. Məlum olduğu kimi, o, Ermənistanın Rusiyadan qopmasına səbəb olub. İndi onun necə geri çəkildiyini görürük. Tamamilə yox. Ancaq yenə də açıq tendensiyalar var. Lavrov və Matviyenkonun Ermənistana son səfərləri. Ermənistan hakimiyyətinin İrəvanın Rusiya ilə müttəfiqlik münasibətlərinə yenidən baxmaq niyyətində olmadığı barədə eyfonik bəyanatları. Oxşar bəyanatları Ermənistan Xarici İşlər Nazirliyinin rəhbəri Ararat Mirzoyan yanvarda Moskvaya səfəri zamanı səsləndirib. Və İrəvan bəyan etməyə başladı ki, onlar Rusiya və Qərbə qarşı deyillər, Rusiya Federasiyası ilə də müttəfiqlik münasibətləri inkişaf etdirirlər.

Paşinyan Qərbin daha az dəstəyi fonunda anladı ki, onun üçün açıq şəkildə Rusiyaya qarşı getməsi sərfəli deyil və münasibətlərdə Ermənistan üçün sərfəli olan istiqamətləri saxlamaq lazımdır. Xüsusilə, Ermənistanın Aİİ-yə üzv olması respublikaya böyük bonuslar gətirir. Ermənistan əsasən Rusiya ilə vəziyyəti gərginləşdirməyi dayandırıb. Qərb isə belə görünür ki, bu məqama dözür. Ona görə də indiki Ermənistanın baş naziri "atları tələsdirmir". Beləliklə, Paşinyan Rusiya ilə yaxşı münasibətlərin tərəfdarı olan Ermənistan cəmiyyətinin və cəmiyyətin Ermənistanın Avropa gələcəyinə "kök salan" hissəsinin tələblərinə cavab verir. Yəni burada da Paşinyan balansı saxlayır.

Bundan əlavə, Paşinyan Azərbaycan üçün yaxşı variantdır, əvvəllər nə və necə deməsindən asılı olmayaraq, sülh səhifəsi məhz onun hakimiyyəti altında başlayıb. Nəhayət, Ermənistan Qarabağı Azərbaycan ərazisi kimi tanıdı, sərhədlərin delimitasiyası prosesi başladı və sülh müqaviləsi razılaşdırıldı. "Qarabağ klanı" işğalçılarının mövqeyini nəzərə alaraq belə perspektivlər mümkün idimi? Ehtimal yoxdur.

Eyni zamanda mən inanıram ki, Ermənistan nə vaxtsa yenə də Azərbaycandan Qarabağ üçün bağışlanmasını istəyəcək. Bu düzgün və məntiqli olardı. Və onda sizə bu fikirlərimi bir daha xatırladacağam.

***-Bununla yanaşı, İrəvanın sırf anti-Rusiya və Qərbyönümlü ritorikadan imtina etməsinin səbəbi nədir?***

-Ermənistanın əhalisi əsasən Rusiyadan dotasiya alır. Elitanı isə Qərb dotasiya edir. Ona görə də bu siyasət balanslılığa və eyni vaxtda iki stulda oturmaq istəyinə bağlıdır.

***Tərcümə - Elçin Bayramlı***

# "Azərbaycanın güclü ordusu döyüş meydanında öz sözünü deyib"

"1918-ci il iyunun 26-da Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının qərarı ilə yaradılan Əlahiddə Azərbaycan Korpusu ordumuzun təməlini qoymuşdur". Bu sözləri SİA-ya açıqlamasında hərbi ekspert Azər Bayramov deyib.O bildirib ki, Azərbaycan müstəqillik qazandıqdan sonra, dövlətimizin başçısı tərəfindən Azərbaycan Korpusunun yenidən yaradılması barədə qərar qəbul olundu və bu proses prioritet istiqamət kimi müəyyən edildi: "Bu addım həm də Azərbaycan ordusunun qədim və güclü hərbi ənənələrə sahib olduğunu bir daha nümayiş etdirdi. Müstəqillikdən sonra Azərbaycan Korpusunun yaradılması milli təhlükəsizliyimizin təmin olunmasında mühüm əhəmiyyət kəsb edirdi və bu sahədə xüsusi xidmətlər göstərildi. Bildiyimiz kimi, 70 il ərzində Sovet sistemində aparılan hərbi hazırlıq bizə bu sistemin imkan və məhdudiyyətlərini göstərdi. Lakin bu gün Azərbaycan ordusunun təlim və hazırlıq sistemi mərhələli şəkildə NATO standartlarına uyğunlaşdırılır. Bu dəyişikliklər Azərbaycanın hərbi sahədə müasir tələblərə uyğunlaşmaq və beynəlxalq təhlükəsizlik strukturları ilə uzlaşmaq istiqamətindəki strateji baxışını əks etdirir. Təhlükəsizlik baxımından biz ordumuzun daha da təkmilləşdirilməsi, peşəkar zabit, gizir və əsgər heyətinin hazırlanması, hərbi təhsil müəssisələrinin və maddi-texniki bazanın gücləndirilməsi istiqamətində ciddi addımların atıldığını müşahidə etdik. Azərbaycan ordusu İkinci Qarabağ müharibəsinə qədər istər şəxsi heyətin döyüş hazırlığı baxımından, istərsə də maddi-texniki təchizat baxımından əhəmiyyətli dərəcədə inkişaf yolu keçmişdi. Bu inkişafın praktiki nəticələrini biz həm İkinci Qarabağ müharibəsində, həm də sonrakı antiterror tədbirlərində aydın şəkildə gördük. Xüsusilə qeyd




olunmalıdır ki, əldə olunmuş uğurlara əsaslanaraq, İkinci Qarabağ müharibəsindən sonra da, Ali Baş Komandanın tövsiyələrinə uyğun olaraq, yeni komanda bölmələrinin yaradılması, onların təchizatının təmin olunması, eyni zamanda qoşun növləri üzrə ordu strukturunun müasirləşdirilməsi, texniki vasitələrlə təminatın artırılması, hərbi hava qüvvələrinin yenilənməsi və bu istiqamətdə yeni avadanlıqların alınması həyata keçirilmişdir. Şübhəsiz ki, bütün bu faktorlar göstərir ki, İkinci Qarabağ müharibəsindən sonra da Azərbaycan ordusu sürətlə güclənməyə davam edir. Hazırda orduya müasir silahların gətirilməsi, şəxsi heyətin döyüş hazırlığının artırılması və maddi-texniki bazanın gücləndirilməsi istiqamətində ardıcıl addımlar atılır.

Eyni zamanda, hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması sahəsində də davamlı tədbirlər həyata keçirilir. Bütün bu fəaliyyətlər Silahlı Qüvvələrimizin gücünü daha da artırır"."Bugünkü reallıq onu göstərir ki, Azərbaycanın güclü ordusu artıq döyüş meydanında da öz sözünü deyib və bütün dünya bunu açıq şəkildə müşahidə edib. Silahlı Qüvvələrimiz hər zaman dövlət başçısının diqqət mərkəzindədir. Cari və gələcək illər üçün nəzərdə tutulan təhlükəsizlik və müdafiə tədbirlərinə nəzər saldıqda bunu aydın şəkildə görmək mümkündür. Müasir dövrdə dünyada baş verən proseslərə baxdıqda təhlükəsizlik hər bir dövlət üçün əsas prioritet məsələlərdən birinə çevrilib. Çünki biz artıq praktiki olaraq müşahidə edirik ki, beynəlxalq hüquq prinsipləri bəzi hallarda nəzərə alınmır və buna əməl edilmir. Bütün bunları nəzərə alaraq düşünürük ki, bundan sonra da Azərbaycan ordusunun inkişaf etdirilməsi, şəxsi heyətin döyüş qabiliyyətinin artırılması, fasiləsiz olaraq yeni nəsil müasir silah sistemlərinin orduya verilməsi və digər zəruri tədbirlərin həyata keçirilməsi davam etdiriləcək" - deyə o, əlavə edib.

***Söylü Ağazadə***

# "Zaman keçdikcə bir çox peşələr avtomatlaşdırılır"

*Ekspert mühüm məqamlara aydınlıq gətirdi*

"Zaman keçdikcə bir çox peşələr avtomatlaşdırılır, bəziləri isə tamamilə ləğv olunur. Dünya İqtisadi Forumu tərəfindən 2023-cü ildə yayımlanan "The Future of Jobs Report" sənədində qeyd olunur ki, qarşıdakı beş ildə 83 milyon iş yeri ləğv olunacaq, bunun əvəzində 69 milyon yeni iş yeri yaranacaq. Bu dinamika texnoloji transformasiya və süni intellektin sürətli tətbiqi ilə birbaşa əlaqəlidir. Lakin bu qədər dəyişkənlik fonunda bəzi peşələr var ki, hələ də sabitliyini qoruyur, sosial və iqtisadi əhəmiyyətini itirmir. Bu peşələrin davamlılığını təmin edən əsas amil onların insan faktoru ilə sıx bağlı olması və texnologiyanın onları tam əvəzləyə bilməməsidir". Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Kamran Əsədov deyib.





Kamran Əsədov sözlərinə belə davam edib: "Müəllimlik peşəsi bu baxımdan mühüm yer tutur. Azərbaycan Respublikasının "Təhsil haqqında" Qanununun 21-ci maddəsinə əsasən, müəllim təkcə tədris prosesinin təşkilatçısı deyil, həm də tərbiyəvi və sosial-psixoloji funksiyaları yerinə yetirən şəxsdir. Bu maddədə müəllimin pedaqoji azadlığı, tərbiyəvi məsuliyyəti və şagirdlərin şəxsiyyət kimi formalaşmasındakı rolu xüsusi vurğulanır. Müasir texnologiyalar bilik ötürülməsi funksiyasını müəyyən qədər yerinə yetirə bilsə də, tərbiyəvi və dəyərlərə əsaslanan öyrətmə missiyasını hələ də yalnız müəllim həyata keçirə bilir. Burada məsələ yalnız informasiya vermək yox, həm də düşünmək, seçmək, empati qurmaq, vətəndaş yetişdirməkdir. UNESCO-nun 2022-ci il hesabatına görə, süni intellektin geniş yayıldığı ölkələrdə belə müəllim ehtiyacı azalmamış, əksinə daha çox psixopedoqoji biliklərə malik müəllimlərə tələbat artmışdır.

Həkimlik də dəyişməyən peşələr sırasında yer almaqdadır. Tibb sahəsində texnologiya və süni intellekt bir çox diaqnostik və monitorinq proseslərini avtomatlaşdırsa da, pasiyentlə ünsiyyət, tibbi qərarvermə və humanist yanaşma həkimə olan ehtiyacı qoruyub saxlayır. Dünya Səhiyyə Təşkilatının (WHO) 2021-ci il məlumatına əsasən, 2030-cu ilə qədər dünyada 18 milyon həkim və tibbi işçi çatışmazlığı gözlənilir. Bu rəqəm göstərir ki, tibb sahəsində texnologiya işçi qüvvəsini tam əvəz edə bilməz. Həmçinin, Azərbaycan Respublikasının "Əhalinin sağlamlığının qorunması haqqında" Qanunun 4-cü maddəsində qeyd olunur ki, həkim yalnız diaqnoz və müalicə ilə deyil, həm də əhalinin sağlamlığının təbliği, profilaktik tədbirlərin həyata keçirilməsi və xəstənin sosial-psixoloji vəziyyəti ilə də məşğuldur. Bu isə sübut edir ki, həkimlik sadəcə texniki biliklər deyil, həm də kompleks sosial xidmət funksiyası daşıyır.

Digər dəyişməyən peşə isə hüquq sahəsidir. Qanunvericiliyin tətbiqi, məhkəmə prosesləri və hüquqi qiymətləndirmə yalnız mətnə əsaslanmır, həm də insanın niyyəti, davranışı və sosial konteksti ilə bağlıdır. Süni intellekt müəyyən dərəcədə hüquqi analizlər apara bilsə də, etik qərarvermə, məsuliyyət bölgüsü və hüquqi mübahisələrin qiymətləndirilməsi üçün hələ də insan faktoruna ehtiyac var. Azərbaycan Respublikasının Konstitusiyasının 127-ci maddəsinə əsasən, məhkəmə hakimiyyəti yalnız hakimlər tərəfindən həyata keçirilir və bu hakimlər müstəqil və qərəzsiz olmalıdırlar. Süni intellektin qərəzsizliyi mübahisəli ola biləcəyindən, hüquq və məhkəmə sahəsi dəyişməyən peşələr sırasında qalır. Həmçinin, vəkil peşəsi də hüquq sahəsində şəxsin maraqlarını müdafiə, insan hüquqlarının qorunması funksiyasına görə əvəzolunmaz hesab olunur.

Bu dəyişməz peşələrin müsbət tərəfi ondan ibarətdir ki, onlar insani münasibətlərə, empatiyaya, əxlaqi və etik prinsiplərə əsaslanır. Bu sahələrdə çalışanlar yalnız texniki işçi deyil, həm də cəmiyyətin dayağıdır. Məsələn, müəllim cəmiyyətin gələcəyini formalaşdırır, həkim insan həyatını qoruyur, hüquqşünas isə ədaləti təmin edir. Onların fəaliyyət sahələri yalnız iş deyil, həm də missiyadır. Digər tərəfdən, bu peşələrdə dəyişməzliyin mənfi tərəfi kimi texnoloji inteqrasiya və innovasiyaya açıq olmamaq təhlükəsi ortaya çıxır. Əgər bu peşə sahibləri öz fəaliyyətlərini müasir tələblərə uyğunlaşdırmazlarsa, bir müddət sonra sistem içərisində marginallaşa bilərlər. Məsələn, rəqəmsal savadlılığı olmayan müəllim və ya texnologiyanı qəbul etməyən həkim effektiv fəaliyyət göstərə bilməyəcək.

Dünya təcrübəsində də bu peşələrin sabitliyi təsdiqlənir. Finlandiyada müəllimlik peşəsi cəmiyyətin ən prestijli sahələrindən biri sayılır və yüksək maaş, sosial status ilə müşayiət olunur. ABŞ-da həkimlik peşəsi həm gəlirlilik, həm də ictimai əhəmiyyət baxımından ilk sıralardadır. Almaniyada isə hüquq sahəsində çalışanlar cəmiyyətin ən etibarlı və sabit peşə sahibləri kimi qəbul olunur. Bu ölkələrdə bu peşələr dəyişmir, əksinə daha da gücləndirilir və dəyərləndirilir.

Azərbaycanda da bu sahələrin davamlılığı dövlət siyasətində müəyyən qədər öz əksini tapır, lakin praktiki tətbiqdə bəzi boşluqlar qalmaqdadır. Müəllimlərin sosial müdafiəsi, həkimlərin etik prinsiplərlə fəaliyyət göstərməsi, hüquq sisteminin müstəqilliyi kimi məsələlərdə institusional zəifliklər bu peşələrin dəyərinin reallıqda tam əks olunmasına mane olur. Dəyişən dünyada dəyişməyən peşələrin sosial və insani dəyəri daha da artacaq. Gələcəkdə texnologiya bu sahələrə köməkçi vasitə kimi tətbiq olunmalı, lakin bu peşələrin insan faktoru qorunmalıdır. Bu istiqamətdə təhsil siyasəti, peşəkar inkişaf, sosial təminat və ictimai nüfuz kimi məsələlərə önəm verilməlidir. Əks halda, bu dəyişməz peşələr də dəyişən dünyanın içində mənasını itirə bilər".

***Ayşən Vəli***

# Makron Trampa qarşı

*Fransa Qrenlandiyada mədən əməliyyatlarına qoşulub*

***G7 sammiti üçün Kanadaya gedən Fransa prezidenti Emmanuel Makron həftənin sonunda Qrenlandiyaya səfər edəcək. O, ABŞ prezidenti Donald Trampın Danimarka adasını ABŞ-ın tərkibinə daxil etmək istəyi ilə bağlı yüksək profilli bəyanatları fonunda Şimali Atlantika və Arktikada təhlükəsizliyi müzakirə etmək üçün Nuuk şəhərinə səfər edən ilk Avropa dövlət başçısı olacaq. İyunun 9-da Makron bildirib ki, Qrenlandiyanın "zəbt obyekti deyil" və yəqin ki, Trampın Arktika adasını ABŞ-ın nəzarəti altına almaq istəməsi ilə bağlı təkrar bəyanatlarına eyham vurub. Makronun sözləri Nuuk səfəri ərəfəsində Qrenlandiya lideri Yens-Frederik Nilsen və Danimarkanın baş naziri Mette Frederiksenlə danışıqlar aparmağı planlaşdırdığı vaxtda deyib. Yelisey sarayından verilən məlumata görə, danışıqlarda Şimali Atlantika və Arktikada təhlükəsizlik vəziyyəti, o cümlədən enerji sektorunda əməkdaşlıq və mühüm faydalı qazıntıların hasilatı müzakirə olunacaq.***

Lakin Danimarka mətbuatına görə, Makronun səfərinin məqsədi Danimarkanın ərazi bütövlüyünə hörmətlə yanaşmaqda ona dəstək olmaqdır. Ağ Evə qayıtdıqdan sonra Tramp bir neçə dəfə strateji mövqeyə malik, resursla zəngin Arktika adası olan Qrenlandiyaya nəzarəti ələ keçirmək arzusunu ifadə edib. The Wall Street Journal bu yaxınlarda Trampın Amerika kəşfiyyat agentliklərinə Qrenlandiya ilə bağlı kəşfiyyat məlumatlarının toplanmasının sürətləndirilməsini əmr etdiyini yazıb. Pentaqon isə iyun ayında Qrenlandiyanı ABŞ Şimal Komandanlığının (NORTHCOM) məsuliyyət zonasına daxil etməyi planlaşdırır.

Öz növbəsində "The Washington Post" yazıb ki, Vaşinqton adanın alınmasının dəyərini öyrənir. Qəzetin mənbələri bildiriblər ki, Ağ Evin büdcə departamentinin əməkdaşları Qrenlandiyanın 57 min sakininə dövlət xidmətlərinin göstərilməsini nəzərə alaraq, onun saxlanmasının nə qədər baha başa gələ biləcəyini hesablayırlar. Onlar həmçinin adanın təbii ehtiyatlarının ABŞ büdcəsinə nə qədər gəlir gətirə biləcəyini hesablamağa çalışırlar. Üstəlik, Trampın danışdığı Kanada və Panama kanalı da daxil olmaqla, bütün potensial satınalmalardan "o, Qrenlandiyanı ən asanı hesab edir", qəzetin mənbəsi bildirib.

Eyni zamanda, Qrenlandiyanın biznes və mineral ehtiyatlar naziri Naaja Nathanielsen qeyd edir ki, adaya artan geosiyasi diqqətə baxmayaraq, "ABŞ-ın marağı hələ konkret investisiyalara çevrilməyib". Onun sözlərinə görə, ilin əvvəlindən Amerikanın özəl şirkətlərinin nümayəndə heyətləri Qrenlandiyaya səfər edib, lakin Ağ Evlə rəsmi dialoq hələ başlamayıb.

Yalnız ABŞ-ın vitse-prezidenti J.D.Vens həyat yoldaşı ilə adaya səfər edib və Pituffik bazasında amerikalı hərbçilərlə söhbət edib. Orada o, Danimarkanın "Qrenlandiya xalqı üçün pis iş gördüyünü" söyləyib və Trampın adanın ABŞ-ın milli təhlükəsizliyi və Çin və Rusiya da daxil olmaqla "azad dünyanın" qorunması üçün həyati əhəmiyyət kəsb etdiyi barədə bəyanatını təkrarlayıb. "İndiyə qədər bütün bu səs-küy Qrenlandiyaya birbaşa investisiyaların artmasına səbəb olmayıb", - Nathanielsen vurğulayıb. "Biz hələ Amerika vəsaitlərinin Qrenlandiya bizneslərinə axıdılmasının konkret nümunələrini görməmişik". Bundan başqa, nazir xəbərdarlıq edib ki, ABŞ və Avropa şirkətləri investisiyalarını tələsdirməlidirlər. Əks halda, Qrenlandiya hakimiyyəti digər ölkələrdə, xüsusən də Çində faydalı qazıntıların işlənməsi üçün kömək istəməli olacaq.

Görünür, Fransa Nuukun çağırışını eşidib. Mayın 21-də Qrenlandiya Danimarka-Fransa mədən şirkətinə Greenland Anorthosite Mining (GAM) 30 illik mədən lisenziyası verib. Fransız İnvestisiya Qrupu Jean Boulle Group tərəfindən dəstəklənən GAM adanın qərbində alüminium istehsalında alternativ ola biləcək sözdə ay qayasını hasil edəcək. Söhbət NASA-nın Apollon missiyaları tərəfindən Yerə çatdırılan materiallara bənzər anortozitdən (alüminium, mikrosilikat və kalsiumdan ibarətdir) gedir.

Rusiyalı alim Petr Çerkasovun sözlərinə görə, Makronun Qrenlandiya səfərinə müxtəlif rakurslardan baxmaq olar. "Əvvəla, nəticə özünü doğrultmağa əsas verir ki, bu, Avropanın lideri kimi özünü təsdiqləmək üçün daha bir addımdır, avropalıları, indiki halda qrenlandiyalıları, Amerikanın "keçisindən" "bağ"ı qorumaqla məşğuldur, o, oraya nüfuz etmək və onu öz maraqları naminə inkişaf etdirmək niyyətindədir. Bu mənada Makronun Qrenlandiyaya səfəri Avropa birliyinin nümayişidir", - deyə ekspert bildirib.

Amma söhbət təkcə Fransa prezidentinin ambisiyalarından getmir. "Mən onun inanılmaz xarici fəaliyyətini Yelisey sarayının özünün mövqeyinin qeyri-sabitliyi ilə əlaqələndirərdim. Bunu Fransada bələdiyyə seçkilərindən tutmuş milli seçkilərə qədər bütün son seçkilərin nəticələri sübut edir. Fransızların diqqətini ciddi daxili problemlərdən yayındırmaq, beynəlxalq siyasət məsələlərinə keçmək, şərqdən gələn təhlükə ilə qorxutmaq, cəmiyyəti birləşdirmək ümidi ilə Macinin əsas məqsədi budur. siyasət", - Çerkasov vurğulayıb.

E.Makron müəyyən dərəcədə öz məqsədlərinə nail olur, bunu Fransada Dördüncü Respublika dövründən bəri görünməmiş medianın körüklədiyi anti-Rusiya əhval-ruhiyyəsinin artması sübut edir. İndi isə, Danimarkanın baş naziri və Qrenlandiya hökumətinin başçısı ilə danışıqlar Aİ-nin Arktika məkanını təkcə Trampdan deyil, həm də Putindən qorumaq çağırışları olmadan keçməyəcək.

**V.VƏLİYEV**

RAKURS












# Uşaq əməyi istismarı: hər 10 uşaqdan biri...



## *Dünyada hər on uşaqdan birinin əməyi istismar edilir*



***Problem olan uşaq əməyinin istismarı hallarının qarşısının alınması məqsədilə Beynəlxalq Əmək Təşkilatı (BƏT) tərəfindən 2002-ci ildən 12 iyun tarixi "Ümumdünya Uşaq Əməyinə Qarşı Mübarizə Günü" elan edilib.***

Uşaq əməyinin istismarı hallarının bir çox səbəbi var, amma ən mühüm səbəblərindən biri yoxsulluqdur. Bir çox vəziyyətlərdə bu vəziyyət qlobal uşaq əməyinin istismarı biznesinə də "töhfə" vermiş olur. Uşaq əməyi işəgötürənlər üçün ucuz işçi qüvvəsi hesab edilir. Münaqişə, fəlakət və ya yoxsulluq səbəbindən köçkün düşmüş miqrant və qaçqın uşaqlar da ucuz işçi qüvvəsidir. Uşaqları gözləyən təhlükələr arasında ağır əmək, müharibə, orqan və fahişəlik mafiyası ön plandadır.



Beynəlxalq Əmək Təşkilatının (BƏT) məlumatlarına görə, hazırda dünyada 5-17 yaş arasında ən azı 218 milyon uşaq işçi var və onlardan ən azı 73 milyonu təhlükəli işlərdə çalışır. Son 10 ildə dünyada 2 milyondan çox uşaq münaqişələr nəticəsində həlak olub, 1 milyondan çoxu yetim qalıb, 6 milyondan çox uşaq ağır yaralanıb və qalan ömrünü əlilliklə davam etdirməli olub. Kimsəsiz qalan uşaqlar hələ də Əfqanıstan, Suriya, Pakistan, Afrika və Yaxın Şərq ölkələrindən qaçaraq başqa ölkələrə gedirlər. Getdikləri ölkələrdə immiqrant uşaqlar müxtəlif qruplar tərəfindən qeyri-qanuni məqsədlər üçün istismar edilir.

Statistikaya görə, 2020-ci ilin əvvəlində dünyada 63 milyon qız və 97 milyon oğlan uşağı olamaqla ümumilikdə 160 milyon uşaq işçi kimi işləyirdi. Bu, dünya üzrə bütün uşaqların təxminən hər 10 nəfərindən 1-i deməkdir. İşləyən uşaqların təxminən yarısı onların sağlamlığına və inkişafına birbaşa təhlükə yaradan təhlükəli işlərdə çalışır. Dünyanın ən yoxsul ölkələrində 5-17 yaşlı hər 5 uşaqdan ən azı biri uşaq işçidir. Uşaqlar tarlalarda, fabriklərdə, mədənlərdə, küçədə və ya bazarda satıcı kimi işləyirlər. Covid19-un səbəb olduğu qlobal iqtisadi problemlər uşaqları daha pis şəraitdə işləməyə, həmçinin uşaq əməyinin artmasına da səbəb oldu. UNICEF-in hesabatında pandemiya səbəbindən əlavə 9 milyon uşağın uşaq əməyinə cəlb edildiyi təxmin edilir.

BƏT hesabatlarına görə, 2000-2016-cı illərdə sağlamlığa zərərli işlərdə çalışan uşaq işçilərin sayında 94 milyon azalma müşahidə edilib. Həmin dövrdə təhlükəli işlərdə çalışan uşaqların sayı yarıbayarı azalıb. Lakin bu irəliləyiş 2012-2016-cı illər arasında yavaşladı. Sözügedən dövrdə uşaq işçilərin sayındakı azalma 16 milyon nəfər olaraq qalıb ki, bu da 2008-2012-ci illərdəki azalmanın yalnız üçdə birini təşkil edir. Həmin illərdə təhlükəli işlərdə çalışanların sayındakı azalma da eyni şəkildə yavaşladı. 2016-2020-ci illərdə uşaq əməyində artımlar müşahidə olunmağa başladı.

Uşaq əməyinin regionlar üzrə bölgüsünə nəzər salsaq görərik ki, Afrika həm faiz, həm də mütləq rəqəmlər baxımından ən yüksək uşaq əməyinə sahibdir, burada hər beş uşaqdan biri olan 92 milyon uşaq işçi var. Asiya - Sakit okean regionu ikinci yerdədir: 49 milyon uşaq işçi. Bu, buradakı bütün uşaqların 5,6%-i deməkdir. Uşaq əməyindən istifadə edilən digər regionlarda - Amerika qitəsində 8,3 milyon, Avropa və Mərkəzi Asiyada 8,3 milyon və ərəb ölkələrində 2,4 milyon uşaq işçi istismar edir.

Uşaq əməyinin sektorlar üzrə bölgüsündə kənd təsərrüfatı ən böyük paya malikdir. Dünyada uşaq işçilərin 70%-i, yəni 12 milyonu kənd təsərrüfatında istismar edilir. 31,4 milyon uşaq isə xidmət sektorunda işlədilir. Sənayedə istismar edilən uşaqların sayı 16,5 milyondur. 5-11 yaş arası uşaqlar uşaq işçilərin ən böyük hissəsini təşkil edir, onlar eləcə də zərərli işlərdə çalışanların əksəriyyəti deməkdir. Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondunun məlumatlarına görə 2020-ci ildə 5-11 yaşlı uşaq işçilərin sayı 2016-cı illə müqayisədə 16,8 milyon nəfər artıb. 5-11 yaş arası bütün uşaq işçilərin dörddə üçündən çoxu kənd təsərrüfatı ilə məşğuldur. Dünyada kənd yerlərində uşaq işçilərin sayı 122,7 milyon nəfər olduğu halda, şəhərlərdə bu rəqəm 37,3 milyon nəfərdir. Kənd yerlərində uşaq əməyinin yayılması (13,9%) şəhər yerlərindəkindən (4,7%) demək olar ki, üç dəfə çoxdur.

Bu statistika hansı şərtlərdə hazırlanıb, kəndlərdə istismar edildiyi qeydə alınan uşaqlar öz ailələri ilə yaşayır, yaxud başqaları tərəfindən istismar edilir, bunlar qaranlıqdır. Kənd yerlərində uşaqların ailə təsərrüfatında işləməsi bütün dünyada normal haldır, bu istismar sayılmır, sayılmamalıdır. Ailə bir müəssisədir, ailəyə məxsus təsərrüfatda hər kəs müəyyən paya və rola sahibdir. Valideyninə kömək edən, ailə təsərrüfatında kiçik işlər görən uşaqlar beynəlxalq statistikaya "istismar edilir" kimi əlavə edilməməlidir.

Uşaq əməyindən istismar hallarına qarşı mübarizənin kritik əhəmiyyətə malik olmasına baxmayaraq, bu gün dünyada uşaqlar, BƏT-in 182 saylı Konvensiyasının 3-cü maddəsində müəyyən edilmiş uşaq əməyinin ən pis formalarında istismar edilir. Uşaq əməyinin ən pis formaları dedikdə, uşaqların alınması, satılması və alveri, məcburi əmək, o cümlədən uşaqların hərbi münaqişələrdə məcburi istifadəsi, döyüşdürülməsi, qul kimi istismarı, fahişəliyə cəlb edilməsi, pornoqrafik nəşrlərin və ya pornoqrafik tamaşaların hazırlanması üçün istismarı,uşağın qeyri-qanuni fəaliyyətdə, xüsusilə müvafiq beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş narkotik vasitələrin istehsalı və dövriyyəsində, tədarükündə istifadə edilməsi nəzərdə tutulur.

Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 12-ci maddəsinə əsasən uşaqları, onların həyatına, sağlamlığına və ya mənəviyyatına təhlükə törədə bilən fəaliyyətə cəlb etməmək işəgötürənin borcudur. Həmin maddədə qeyd olunur ki, işçilərin hüquqlarını pozan, əmək müqaviləsi üzrə öz öhdəliklərini yerinə yetirməyən, 15 yaşına çatmamış şəxsləri işə götürən, uşaqları onların həyatına, sağlamlığına və ya mənəviyyatına təhlükə törədə bilən fəaliyyətə cəlb edən, qanunla pedaqoji fəaliyyətlə məşğul olması qadağan edilən şəxslə pedaqoji fəaliyyətlə məşğul olmaq üçün əmək müqaviləsi bağlayan, habelə bu Məcəllənin tələblərinə əməl etməyən işəgötürən qanunvericiliklə müəyyən olunmuş qaydada müvafiq məsuliyyətə cəlb edilir.





Sosial şəbəkələrdə çox rastlaşırıq, körpə uşaqları kamera qarşısında məcburi danışdıran, söyüş söydürən, rəqs etdirib paylaşan insanlar var. Təəsüfedici vəziyyətdir ki, əksər hallarda bunu uşaqların öz doğma valideynləri edir. Bu hallar uşaqların istismarı deməkdir. Uşaqları publikaya hesablanmış hərəkətlərə məcbur etmək, baxış sayı qazanmaq, səhifənin populyarlığını artırmaq üçün uşaqlardan istifadə yolverilməzdir.

**Lalə Mehralı**

# Gənclər niyə özlərini gizlədir?

***Bəzən elə olur ki, bir insanı evdə görürsən - sakit, itaətkar, sanki özünü sıxan biri. Sonra həmin adamı dostları ilə danışqan, açıq fikirli, tam fərqli biri kimi görürsən. Sanki bir bədəndə iki ruh var. Bir evdə iki fərqli insan yaşayır. Valideynlərinin tanıdığı övladla dostlarının tanıdığı gənc eyni adam deyil. Bu hal get-gedə daha da yayılır. Niyə? Gənclər niyə özlərini gizlədir?***



SİA mövzu ilə bağlı araşdırma aparıb. Bəzən bu fərqlilik qorxudan doğur. Gənc düşünür ki, əgər evdə öz fikrini açıq desə, qəbul olunmayacaq. Əgər evdəki ”normal” çərçivədən bir addım kənara çıxsa, onu qınayacaqlar. Və zamanla o, iki həyat qurur: biri - ”görsənmək üçün”, digəri - ”həqiqi mən” üçün.

Evdə ailəsinin yanında olduğu kimi davranmaq onun üçün təhlükəsiz görünür. Ailənin gözündə yaxşı övlad obrazını qorumaq istəyir. Amma içindəki əsl ”mən” rahatlıqla nəfəs ala bilmir. Və o nəfəsi tapdığı yeganə yer - dostlarının yanıdır. Orda olduğu kimi danışır, gülür, bəzən söyür, bəzən ağlayır, bəzən düşünür. Özüdür, heç kimdən qorxmur.

Bu ikili həyat uzunmüddətli olanda, insanı yorur. Özünü ifadə edə bilməyən gənc daxildən parçalanır. Çünki insanın davamlı





maska taxması bir müddət sonra onun öz kimliyini unutmasına səbəb olur. Sən artıq doğrudan hansı ”sən”sən - özün də ayırd edə bilmirsən. Bu halın səbəbi təkcə ailə deyil. Cəmiyyət də eyni dərəcədə təzyiq göstərir. ”O nə geyimdir?”, ”O necə danışır?”, ”Filankəsin uşağına bax, sən də ondan nümunə götür” - bu kimi cümlələr gənci ya susmağa, ya da saxta obraz yaratmağa məcbur edir. Və nəticədə ortaya çıxır - iki həyat, iki sifət, amma bir yüklü ruh.



Gənclər gizlənmək istəmir. Sadəcə, başa düşülmək istəyirlər. Onlar tənqid yox, qəbul axtarırlar. Və bu qəbul olmadığı yerdə özlərini bölmək məcburiyyətində qalırlar: bir az ev üçün, bir az özləri üçün.

Əgər ailələr, müəllimlər, cəmiyyət olaraq gəncləri olduğu kimi qəbul etməyi bacarsaq - onların iki deyil, bir tam və azad həyat yaşamağı mümkün olar. Amma bu, qarşılıqlı anlayışla baş verə bilər. Əks halda, bir evin içində minlərlə gizlənmiş ”mən”lərlə yaşayan gənclər cəmiyyətin ən böyük səssizliyi olmağa davam edəcək.

Amma bu ikili həyat təkcə gənclik illərində qalmır. İnsan bu vəziyyəti öz içində çözə bilmədikcə, bu parçalanma onunla birgə böyüyür. Günlərin birində ailə qurur, amma içindəki ikilik yenə qalır. Bu dəfə evdə yalnız valideynlərinə deyil, artıq həyat yoldaşına da uyğun görünməyə çalışır.

Belə gənclərin evlilik həyatı çox zaman səthi və yorucu olur. Çünki evliliyin təməli - açıq ünsiyyət, güvən və daxili azadlıq - bu insan üçün hələ formalaşmayıb. Əgər bir insan illərlə özünü ifadə etməyə qorxubsa, sevdiyi insanla da açıq danışmaq ona çətin gələcək. Hər şey yenə susqunluq və uyğunlaşma ilə davam edəcək.

Təsəvvür edin: evdə bir tərəf yalandan gülür, digəri bu gülüşü həqiqi sanır. Bir gün bu maska düşəndə isə qarşı tərəf çaşqın qalır - ”Sən əvvəllər belə deyildin ” Halbuki, o həmişə elə olub. Sadəcə, göstərməyə qorxub. Və nəticədə iki nəfər arasında səssiz uçurum yaranır.

Daha pisi - bu cür gənclər çox vaxt özlərinə uyğun olmayan insanla ailə qururlar. Yəni içindəki ”gerçək mən”lə uyğun olan deyil, valideynlərinin, cəmiyyətin bəyəndiyi biri ilə. Çünki illərlə o, nəyi istədiyini deyil, nəyin ”daha münasib” olduğunu öyrənib. Və bir müddət sonra o evliliyin içində sıxılır, boğulur, amma ayrılmaq da çətin gəlir. Çünki hər şey zahirdə düzgündür, amma içində yanlışdır.

Bu cür münasibətlərdə sevgi getdikcə rəsmi ünsiyyətə çevrilir. İki insan bir evi paylaşır, amma bir-birinin ruhuna toxuna bilmir. Uşaqları olur - və bu ikilik onların tərbiyəsinə də ötürülür. Yeni nəsil yenə özünü gizlədən, özünü başqalarına uyğunlaşdırmağa çalışan fərdlərlə dolur.

Əslində, bu məsələ cəmiyyətin əsas sosial problemlərindən biridir. Çünki biz hələ də insanı olduğu kimi qəbul etməkdə çətinlik çəkirik. Gənclər özlərinə bənzər həyat qurmaq yerinə, başqasının təsdiqini almaq üçün yaşayırlar. Bu da nə daxili rahatlıq gətirir, nə də sağlam ailə münasibətləri yaradır. Bəlkə də dəyişiklik kiçik sualla başlaya bilər: ”Sən əslində kimsən və nə istəyirsən?” Bu sual gənclərə evdə verilsəydi, bəlkə də onlar çöldə başqa cür davranmağa ehtiyac duymazdılar.

## Bu ikiliyin psixoloji kökləri nədən başlayır?

Çox vaxt bu parçalanma uşaqlıqdan başlayır. Valideynin sevgisini, diqqətini qazanmaq üçün uşaq özünü ”sevilən versiya”da təqdim etməyə başlayır. Əslində isə uşaq bilmir: valideyn onu olduğu kimi qəbul edəcək, yoxsa yox? Əgər hər dəfə ”sən belə danışma”, ”belə gülmə”, ”o uşağa bax, sən ondan geri qalırsan” kimi cümlələrlə böyüyürsə, təbii ki, bir müddət sonra içindəki ”mən”i bağlayır, bir ”başqasını” yaratmağa başlayır - uyğun olanı, tərifləndəni, qəbulediləni.

Bu da onu aparır özünü sevməməyə. Gənc düşünür ki, mən olduğum kimi yetərli deyiləm. Hər dəfə fərqli bir mühitdə fərqli rol oynamaq isə insanın içini boşaldır. Bu boşluq evliliyə də daşınır. Qarşı tərəf sevgi, dürüstlük və yaxınlıq axtarır, amma sən içində bu qədər parçalanmışkən nə verə bilərsən?

Və bu cür evliliklərdə insanlar çox zaman ”niyə bu qədər uzaqlaşdıq?” sualına cavab tapa bilmirlər. Halbuki məsələ başlanğıcdadır - insan əvvəlcə özünə yaxın olmağı bacarmalıdır.

## Bəs nə etməli? Çıxış yolu varmı?

Əlbəttə var. Amma bu dəyişikliklər kənardan yox, öz içimizdən başlamalıdır. Gənc insan ilk növbədə özünü tanımağa çalışmalıdır. Öz hisslərinə, ehtiyaclarına qulaq verməlidir. Nəyi həqiqətən istəyir, nəyi sadəcə başqaları üçün edir - bunu ayırd etməyi öyrənməlidir. Valideynlərə isə böyük rol düşür. Uşaqdan ”ideal” yaratmağa çalışmaq əvəzinə, onu başqa heç kimə bənzətmədən, olduğu kimi qəbul etmək - bu, həm övladın psixoloji sağlamlığı üçün, həm gələcəkdə quracağı münasibətlər üçün həlledici faktordur.

Psixoloqlar bu tip daxili parçalanmanın şəxsiyyətin inteqrasiyası ilə aradan qalxdığını deyirlər. Yəni insan özünün müxtəlif tərəflərini qəbul etməyi, birləşdirməyi öyrənməlidir: həm zəifini, həm güclüsünü. Öz içində barışıq yaratmadan başqasıyla sağlam münasibət qurmaq, ailə saxlamaq çətindir.

Gənclər gizlənmək istəmir. Sadəcə, üzə çıxmağa şərait tapa bilmirlər. Çünki çox zaman biz onlara ”necə olmalı” olduqlarını deyirik, ”olduqları” halı isə görməzdən gəlirik.

İnsan özünü yalnız seviləcəyinə, başa düşüləcəyinə əmin olanda göstərə bilir. Əgər bu şərait evdə yoxdursa, o şəxs öz ”mən”ini başqa yerlərdə, bəzən də yanlış ünvanlarda axtarmağa başlayır.

Və beləliklə, bir bədəndə iki nəfər yaşayır. Amma əslində bu cəmiyyətin ikiüzlü gözləntilərinin bir nəfərə yüklənməsidir. Əgər bir gün insanlar qorxmadan ”mən budur” deyə bilsə, nə dostlar arasında, nə evdə, nə də evlilikdə bu qədər sükut, bu qədər yalan, bu qədər tənhalıq olmaz.

***Ayşən Vəli***

ARAŞDIRMA

# Tariximizin iyun səhifəsi: 32 il əvvəl başlayan epoxa

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği: dövlət müstəqilliyimizin bərpasının 30-cu ili- Azərbaycan dövlətçiliyi müasir mərhələdə" istiqaməti çərçivəsində hazırlanıb*

1993-cü ilin iyun hadisələri Azərbaycan tarixinə ən qalmaqallı proses kimi düşüb. Məhz həmin hadisələrin məntiqi nəticəsi olaraq ölkəmiz xaosdan, xalqımız vətəndaş müharibəsindən qurtuldu. Bəs 32 il əvvəl Gəncədən başlayan proseslər nədən qaynaqlanmışdı? Bu haqda çoxlu yazı yazılıb, rəylər verilib. Biz də bu hadisələrin şahidi olduğumuzdan öz prizmamızdan bir baxış ortaya qoymağa çalışacağıq. Əslində, 1993-cü ilin iyun hadisələrinə 3 istiqamətdə yanaşmaq lazımdır. Burada siyasi, sosial-iqtisadi və hərbi istiqamətlərdə mülahizə yürütmək vacibdir. Bu faktorların təsirini bir-bir nəzərdən keçirək.








## Sosial-iqtisadi faktorların rolu

AXC hakimiyyətə gəldikdən sonra ölkədə sosial-iqtisadi vəziyyət xeyli pisləşmişdi. Artıq 1993-cü ilin başlanğıcında Azərbaycanda büdcə kəsiri 10%-ə çatmışdı. Bu o demək idi ki, ölkəmizdə büdcə kəsiri 100 dəfə artmışdı. Bu isə, olduqca təhlükəli bir hal idi, çünki onsuz da cüzi məbləğdə olan büdcə sürətlə boşalırdı.

Emissiya ümumi gəlirlərin 50%-nə gəlib çatdı. Bankların kredit faizi birdən-birə 250 faizə yüksəldi. İnflyasiya faizi 1800-ə çatdı və hiperinflyasiyaya çevrildi. Ən təhlükəlisi isə o oldu ki, bütün kreditləri bank faizləri-lə qapatmağa başladılar. Keçmiş SSRİ respublikaları ilə iqtisadi və ticari əleqlərin kəsilməsi nəticəsində minlərlə zavod, fabrik və müəssisənin işi pozuldu. Bir çox fəaliyyətini dayandırdı. Ölkədə xarici ticarət dövriyyəsi 60 faiz aşağı düşdü və iqtisadi cəhətdən dövlət çökdü.

Bunun nəticəsi olaraq sosial problemlər şiddətlənirdi. İşsizlik və yoxsulluq sürətlə artmış, ölkədən xaricə kütləvi axın başlamışdı. Çünki, yüzlərlə fabrik, zavod dayanmış, təsərrüfatlar başsız və özbaşına qalmışdı. Bahalaşmalar sürətlə davam edir, əhalinin gəlirləri isə inflyasiya səbəbindən dəyərdən düşürdü.

Bütün bunlar göstərir ki, burada sosial-iqtisadi böhranın rolu danılmazdır. Bu ağır problemlər qiyam zamanı xalqın hakimiyyəti müdafiə etməməsinə səbəb oldu. Xalqın böyük hissəsi dünya şöhrətli siyasətçi Heydər Əliyevə ümid edir, onun ölkəni və xalqı bu bəladan qurtaracağına inanırdı.

## Siyasi faktorların rolu

Siyasi aspektdən yanaşdıqda isə, hakimiyyətin daxilində qruplaşmalar və qarşıdurmaların yaranması anarxiyanı gücləndirmişdi. Hakimiyyət daxilində həmin parçalanmış qüvvələrin liderlərini hakimiyyətə gətirmək uğrunda mübarizə gedirdi. Ölkə faktiki olaraq idarəolunmaz vəziyyətə düşmüşdü.

Həmin vaxt Cümşüd Nuriyevin ifadə etdiyi kimi desək, ölkənin dörd "prezidenti" var idi. Birmənalı şəkildə vaxt daxili işlər naziri kimi İsgəndər Həmidov rəhmətlik Əbülfəz Elçibəyi heç eşitmirdi. Hətta, Rəhim Qazıyev müdafiə naziri, İsa Qəmbər isə Ali Sovetin sədri kimi ona qulaq asmırdı.

Elçibəy tərəfində olan qüvvələr olduqca zəif idi. Prezident özü isə komandanı idarə etmək iqtidarında deyildi. Hakimiyyətin monolit olmaması öz təsirini göstərdi. İsa Qəmbər hakimiyyəti bütövlükdə ələ keçirməyə cəhd edirdi. Bu istiqamətdə o ilk növbədə, prezidentin səlahiyyətlərinin bölüşdürülməsi, konstitusiyanın 121-ci maddəsinin 7-ci bəndinin dəyişdirilməsi məsələsi gündəmə gətirmişdi.

Bu maddəni dəyişdirdilər. Məqsəd o idi ki, prezidentə hər hansı bir şey olarsa, onun səlahiyyətləri spikerə keçsin. Lakin İsa Qəmbərin hazırladığı plan özünə qismət olmadı. Proseslər nəzarətdən çıxmış və hakimiyyət iflic olmuşdu.

Beləliklə, hakimiyyət daxilində özbaşınalıq yarandı və sonda bütün komanda məşlubiyyətə uğradı.

Daxili gərginlik azmış kimi, xarici siyasətdə də rüsvayçı və diletant xətt götürüldü və həlelik kağız üzərində olan dövlətin yaxın qonşularla əlaqələri korlandı. İranı və Rusiyanı qıcıqlandıracaq bəyanatlar yağdırılırdı. Bu da özünü Qarabağ məsələsində və sair məsələlərdə aydın göstərdi. Nəticədə Azərbaycana təsir rıçaqları son dərəcə güclü olan hər iki dövlət Azərbaycana qarşı Ermənistanı müdafiə etməyə məcbur oldu.

## Hərbi faktorların rolu

Hərbi cəhətdən, olduqca özbaşına bir vəziyyət yaranmışdı. Çox sayda özünümüdafiə batalyonları yaradılmışdı, kimin kimə tabe olduğu məlum deyildi. Müdafiə Nazirliyi kağız üzərində idi. Hər silahlı dəstə bir siyasi klanın mənafeyini qoruyur, özbaşına əməliyyatlar aparır, mənsub olduğu qruplaşmanın paytaxta vəziyyəti pisləşəndə cəbhəni buraxıb Bakıya üz tuturdular.

AXC-nin ən böyük səhvlərindən biri də o oldu ki, Soçi danışıqlarında qərara alındı ki, Kəlbəcər ermənilərə verilsin və Dağlıq Qarabağ məsələsi beynəlmiləşdirilsin. Kəlbəcər ermənilərə təhvil veriləndən sonra yeni hökumət müəyyənləşdirildi. Hakimiyyət daxilində 3 yerə bölünmüş qüvvələr arasında mübarizə başlandı.

Gəncədə 1993-cü il iyun hadisələri vəziyyəti daha da ağırlaşdırdı. Burada hökumətə tabe olmayan Surət Hüseynovun rəhbərlik etdiyi bir qrup zabit "hərbi birlik" yaratmışdı. 709 nömrəli hərbi hissə Müdafiə Nazirliyinə tabe olmurdu. İqtidar hərbi müxalifətin öhdəsindən gələ bilmirdi.

İyunun 4-də səhər hərbi qiyamı yatırmaq üçün hökümət Gəncəyə 3 minədək canlı qüvvə, güclü hərbi texnika yeritdi. 709 nömrəli hərbi hissənin kazarmaları dağıdıldı, hərbi təyyarələr havaya qalxıb hava limanını darmadağın etdi. Lakin qiyamçılar təslim olmadılar. Onlar prezident qvardiyaçılarını şəhərdən çıxarmaq adı altında avtobusa doldurub güllələdilər. Hökumət qüvvələri məğlub edildi. Qiyamçı hərbi hissələr Bakıya doğru yeriməyə, prezidentin və hökumətin istefaya getməsini tələb etməyə başladılar və müqavimətə rast gəlmədən paytaxta yaxlınlaşdılar.

İyunun 14-də Nəvahi yaxınlığında da hökumət qoşunları ilə hərbi qiyamçı qüvvələr üz-üzə dayandı. Yaranmış vəziyyətlə əlaqədar parlamentin sədri, baş nazir, üç güc nazirliyinin rəhbərləri istefaya getməyə məcbur oldular.

## Xilas üçün yeganə yol qalmışdı

Ölkənin qabaqcıl adamları, ziyalılar, sadə əməkçilər böyük fəlakətin yaxınlaşdığını hiss edirdilər. Azərbaycan xalqı da nə qədər böyük təhlükənin astanasına gəlib çıxdığını anlamağa başlamışdı.

Bu elə bir dövr idi ki, daşnakların "Böyük Ermənistan" yaratmaq niyyətləri, Azərbaycanı Qafqazın siyasi xəritəsindən silmək planları reallaşmaq üzrə idi. Azərbaycan torpağı etnik əlamətə görə parçalanmaq təhlükəsi qarşısında qalmışdı. 1992-ci il oktyabrın 16-da Azərbaycanın 91 nəfər nüfuzlu ziyalısı Naxçıvan MR Ali Sovetinin sədri Heydər Əliyevə Qurtuluş hərəkatına rəhbərlik etməsi barədə "Səs" qəzeti vasitəsilə rəsmi müraciət etdi. Heydər Əliyevin rəhbərliyi ilə 1992-ci il noyabrın 21-də Naxçıvanda Yeni Azərbaycan Partiyası (YAP) təşkil edildi. Ölkənin nüfuzlu ziyalıları Heydər Əliyevin ətrafında birləşdi.

AXC-Müsavat iqtidarı uzun müddət öz yarıtmaz fəaliyyəti ilə ölkəni parçalanmaq həddinə çatdırmışdı. Vətəndaş müharibəsi üçün zəmin yaranmışdı. Cəbhədə döyüşən özünümüdafiə batalyonlarının paytaxta siaysi proseslərə dəstək vermək üçün çağırılması mövqelərimizin zəifləməsinə və Ermənistan ordusunun üstünlük qazanmağa başlamasına səbəb oldu.

Başlanmış bu təhlükəli proseslərin qarşısını ala bilmədiyini dərk edən iqtidar son anda kömək üçün Heydər Əliyevə müraciət etdi və 1993-cü il iyun ayının 6-da onu Bakıya dəvət etdilər. Heydər Əliyev xalqın bu ağır günündə dəvəti qəbul edib iyunun 9-da Bakıya gəldi. Ümummilli lider həyatını təhlükə altında qoyaraq Gəncəyə getdi. Hadisələrin daha faciəli nəticələrə gətirib çıxarmaması üçün öz sözünü dedi. Onun Gəncəyə səfəri vətəndaş qarşıdurmasının genişlənməsinin qarşısını aldı.

## Azərbaycan dövlətçiliyinin yeni mərhələsi

Ümumilli lider 4 iyun hadisələrinə belə qiymət vermişdi: "4 İyun hadisələri hakimiyyətdəkilərin fərasətsizliyindən və öz işlərini görə bilməməyindən başlayıb". Həqiqətən də belə idi

Heydər Əliyevin Ali Sovetə sədr seçilməsindən sonra prezident Elçibəy Bakını tərk edərək Naxçıvana qaçdı. Dövlət başçısı ölkəni uzaq və kiçik Kələki kəndindən idarə edəcəyinə qərar verdi. Lakin ölkədə siyasi proseslərin qaynar vaxtında, hökumət böhranının gərgin məqamında, iğtişaş və qarşıdurmaların vətəndaş müharibəsinə gətirub çıxarmaq üzrə inkişaf etməsi dövlətin idarəsini qüdrətli bir siyasətçinin əlinə almasını şərtləndirirdi.

Heydər Əliyev parlamentin sədri seçiləndən sonra ilk növbədə vətəndaş qarşıdurmasının qarşısını almağa, respublikada sabitlik yaratmağa, iqtisadi sferada stabilliyi təmin etməyə, cəbhədə real vəziyyəti qiymətləndirib, dövlətin hərbi qüvvələrini və müstəqil özünümudafiə dəstələrini birləşdirib vahid mütəşəkkil ordu yaratmağa başladı. Və 30 il sonra artıq qüdrətli iqtisadi, hərbi, siyasi mövqelələrə malik Azərbaycan öz ərazilərini Ermənistan işğalından azad etdi.

1997-ci ilin iyununda Milli Məclis Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilməsi gününü- 15 iyunu bayram elan etdi. Həmin gün tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu.

***Elçin Bayramlı***

SON SƏHİFƏ
SƏS
13 iyun
2025-ci il

# Ailə qurmaq üçün nə vacibdir - maddiyyat, yoxsa anlayış?





"Azərbaycanda milli və maddi ailə sistemində ciddi problemlər yaşanır və bu, həm hüquqi, həm sosial, həm iqtisadi, həm də geosiyasi və ekoloji - ən əsası isə irsi və genetik səbəblərlə bağlıdır". Bu fikirləri SİA-ya açıqlamasında Yeni Yazarlar və Sənətçilər İctimai Birliyinin sədri, www.kitabxana.net - Mir Cəlal Paşayev adına Milli Virtual-Elektron Kitabxana portalının yaradıcısı, Prezident təqaüdçüsü, yazıçı-kulturoloq Aydın Xan Əbilov deyib.

Onun sözlərinə görə, uzun müddət Sovet dövründə biz qapalı bir sistemdə yaşamışıq. Dünyada baş verən bir çox dəyişikliklər, xüsusən ərzaq təhlükəsizliyi ilə bağlı risklər, dəyişdirilmiş qidaların SSRİ-yə buraxılmaması, təbii qidalanma, şəhərlərə nisbətən kənd əhalisinin çoxluğu, sağlam həyat tərzi, fiziki əmək və s. o dövrün insanlarının həyat tərzinə müsbət təsir edirdi. Milli mətbəxə bağlılıq, idman, mədəniyyət, incəsənət - bütün bunlar estetik və ümumi dünyagörüşü formalaşdırırdı. Lakin artıq o nəsil tarixə qovuşub.

Son 30 ildə verilən sərbəstlik, SSRİ-nin dağılması ilə başlayan siyasi-iqtisadi dəyişikliklər, ekoloji fəlakətlər, ərzaq və qida sektorundakı problemlər insan həyatına ciddi təsir göstərib. Hazırda Azərbaycan insanı çoxsaylı çətinliklər içində yaşayır. Günə 15-20 manata çalışan ofisiantlar, taksi sürücüləri, işsiz gənclər nəsli formalaşır. Bir dönər, içki, elektron siqaret və qəlyanla zamanını keçirən, sosial şəbəkələrdə asılılıq yaşayan bir nəsil yaranıb.

Dünyada süni intellekt, texnoloji dəyişikliklər, işsizlik, hərəkətsizlik və asossiallaşma insanın genetik koduna da təsir göstərməkdədir. Bu proseslər nəticəsində Azərbaycanda boşanma faizi artır, ailə qurmaq istəməyən gənclərin sayı çoxalır. Evliliklərin təxminən 60 faizi boşanma ilə nəticələnir. Gənc ailələrin isə 90 faizi tibbi müdaxilə olmadan övlad sahibi ola bilmir. Doğulan uşaqlar arasında genetik xəstəliklər, sağlamlıq problemləri artır.

Erkən yaşda uşaqlı qızlar, subay analar və ailə strukturlarının dağılması əxlaqi mühitə də mənfi təsir göstərir. Gənclər artıq ailə məsuliyyəti götürmək istəmir. Maddi çətinliklərlə yanaşı, fərdlər arasında "mənəm-mənlik", haqları və sərhədləri tanımamaq, bir-birinin sözünü qəbul etməmək, gəlin-qayınana, yeznə-qayınana, qohumlararası konfliktlər, sosial şəbəkələrin təsiri, serial və filmlərdən gələn lüks həyat tərzi arzusu bu prosesi daha da dərinləşdirir.

Qızlar ağ atlı şahzadə, oğlanlar isə ana obrazına bənzər milli qadın axtarır. Hər kəs yüksək mərtəbəli binalarda yaşamaq, bahalı avtomobil sürmək istəyir. Amma heç kim işləmək, zəhmət çəkmək istəmir. Gənclərin sağlamlığı ilə bağlı da ciddi problemlər yaşanır. Genetik dəyişikliklər, süni intellekt və robotlaşmanın təsiri yaxın 20 ildə Azərbaycan insanını yalnız bir fərd yox, ümumilikdə bir həyat forması kimi təhlükə altına ata bilər. Bu baxımdan, ölkənin müxtəlif bölgələrində - məsələn, Naxçıvan, Lənkəran, Gəncə, Quba və s. yerlərdə yaşayan sağlam genetik quruluşa malik gənclərdən irsi toxum və yumurtalıq bankı yaradılması vacibdir. Bu addım gələcək nəsillər üçün sağlamlıq baxımından ciddi təminat ola bilər. Unutmayaq ki, ailə qurmaq təkcə ev, paltar almaq deyil. Ailə - bir-birini anlamaq, paylaşmaq, emosional və sosial bağ qurmaqdır. Təəssüf ki, bizdə ailə qurmaq çox zaman yanlış anlaşılır.

***Günel Rəşadqızı***


## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN

6 aylıq 79.20 AZN

1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


## Lənkəranda bir kiloqramı 450 manata çay satılır



Lənkəran rayonunun mərkəzi bazarında bir kiloqramı 400-450 manata çay satılır. Bu barədə Xəzər TV-nin reportajında qeyd edilir. Məlumatda deyilir ki, bu bazarda yerli istehsal olan çayların satışına geniş yer ayrılıb, müxtəlif keyfiyyətdə və çeşiddə çaylar müştərilərə təklif olunur. Qiymətlər isə fərqlidir. "Satıcılar deyirlər ki, kiloqramı 15, 20, 25 manat civarında olan çaylara tələbat daha yüksəkdir. Bahalı çaylar isə daha çox hədiyyə məqsədilə alınır". - reportajda qeyd edilir.

## "TikTok"-da dələduzluq edən şəxs saxlanılıb




"TikTok" sosial şəbəkəsində mobil telefonları dəyərindən ucuz qiymətə satdığı barədə yalan elanlar yerləşdirərək ona müraciət edənlərin müxtəlif məbləğlərdə pulunu onlayn yolla ələ keçirən şəxs saxlanılıb. Bu barədə Daxili İşlər Nazirliyi (DİN) məlumat yayıb.

Bildirilib ki, Lerik Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən həyata keçirilən tədbirlərlə əməli törətməkdə şübhəli bilinən əvvəllər məhkum olunmuş Məhəmməd Abbasov tutulub. Həmin şəxsin paytaxt və bölgələrdən olan ümumilikdə 23 nəfərə qarşı eyni üsulla dələduzluq etdiyi müəyyən edilib.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyli
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**

"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 3000**